

Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

Sayı: 12 (24.498)

4 aprel 2026-cı il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi

# Bakı görüşü



## Azərbaycanın TDT-də sədrlik və strateji missiyası

Azərbaycanla türkdilli dövlətlər arasında hərtərəfli əməkdaşlıq son illərdə keyfiyyətcə yeni mərhələyə yüksəlib. Bu prosesdə Türk Dövlətləri Təşkilatı (TDT) ortaq maraqların reallaşdırılması, siyasi və iqtisadi əlaqələrin dərinləşdirilməsi baxımından əsas platforma kimi çıxış edir. Respublikamız 2009-cu ilin oktyabrın 3-də Naxçıvanda əsası qoyulan bu təşkilatın inkişafında ilk gündən fəal rol oynayır. Ötən dövrdə ölkəmiz təşkilatın institusional möhkəmlənməsi, fəaliyyət istiqamətlərinin genişlənməsi və beynəlxalq nüfuzunun artması üçün mühüm təşəbbüslərlə çıxış edib, konkret layihələrin reallaşdırılmasına töhfə verib. Prezident İlham Əliyevin ***“Bizim üçün TDT əsas beynəlxalq təşkilatdır, çünki bu bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk dünyasıdır”*** fikirləri Azərbaycanın bu birliyə verdiyi həm mənəvi, həm də strateji əhəmiyyətin aydın ifadəsidir. Bu sözlər təkcə siyasi bəyanat deyil, eyni zamanda konkret addımlar və təşəbbüslərlə müşayiət olunan praktik fəaliyyət xəttidir. Bu baxımdan, aprelin 2-də Bakı şəhərində keçirilən Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin Hökumət başçılarının/Vitse-prezidentinin ikinci görüşü də xüsusi əhəmiyyət daşıyır. Sözügedən görüş təşkilat daxilində əməkdaşlığın daha da dərinləşdirilməsi, prioritet sahələr üzrə koordinasiyanın gücləndirilməsi və yeni birgə layihələrin müzakirəsi baxımından mühüm məqamları ilə yadda qaldı. Eyni zamanda bu toplantı 2026-cı ildə TDT-yə sədrlik edən Azərbaycanın irəli sürdüyü “Türk dünyası ailəsi” konsepsiyasının praktik müstəvidə daha da möhkəmlənəcəyini göstərdi.

Səhifə ➡ 2

## Məşğulluğun artırılması dövlət siyasətinin əsas prioritetidir

## “Şirvan Aqro” heyvandarlıq kompleksi əhali məşğulluğuna və aqrar inkişafa mühüm töhfədir




Səhifə ➡ 3

# Bakı görüşü

## Azərbaycanın TDT-də sədrlik və strateji missiyası



(əvvəli 1-ci səhifədə)

### Ticarət və strateji layihələrdə aparıcı rol

Xatırlatmaq yerinə düşər ki, ideyası türkdilli xalqlar arasında əsrlərboyu formalaşan siyasi, iqtisadi və mədəni həmrəyliyə söykənən TDT Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan tərəfindən qurulub. Özbəkistan (2019) əsas, Macarıstan (2018), Türkmənistan (2021) və Şimali Kipr Türk Respublikası (2022) isə müşahidəçi üzv qəbul olunublar. 2023-cü ildə İqtisadi Əməkdaşlıq Təşkilatına TDT-nin müşahidəçi statusu verilib. Siyasi dialoqun gücləndirilməsi, iqtisadi əlaqələrin genişləndirilməsi, nəqliyyat-tranzit imkanlarının artırılması, enerji təhlükəsizliyinin təmin olunması, rəqəmsal transformasiya və humanitar sahələrdə inteqrasiyanın dərinləşdirilməsi təşkilatın prioritet istiqamətləri sırasındadır. Türk Dövlətləri Təşkilatının (TDT) 180 milyona yaxınlaşan ümumi əhalisi və illik orta hesabla 5 faizlik artım tempi ilə 2,1 trilyon dollara doğru irəliləyən ümumi daxili məhsulu ticarət əlaqələrini daha da gücləndirmək üçün potensialın böyüklüyünü göstərir. Həmçinin 2024-cü ildə TDT-yə üzv və müşahidəçi ölkələrin öz aralarındakı ixracının ümumi həcmi 35,3 milyard dollara çatıb. Bu rəqəm TDT ölkələrinin dünya üzrə ümumi ixracının 6,1 faizinə bərabərdir. Ölkələr bütün dünya ilə ticarətdə, təxminən, 1,2 trilyon dollarlıq dövriyyəyə nail olaraq qlobal miqyasda çəkilərini bir daha sübut ediblər. Qarşılıqlı ixracın ümumi ixracdakı payının yaxın dövrdə ən azı 10 faizə çatdırılacağı hədəflənir. Azərbaycanın da bu xüsusda rolu olduqca böyükdür. Coğrafi mövqeyi və geosiyasi əhəmiyyəti sayəsində ölkəmiz Şərqlə Qərb arasında mühüm körpü funksiyasını yerinə yetirir. Bu baxımdan, Azərbaycan beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafında fəal iştirak edir. Xüsusilə Orta Dəhliz kimi tanınan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu türk dövlətləri arasında ticarət dövriyyəsinin artmasına və regionun logistika imkanlarının genişlənməsinə mühüm töhfə verir. Bu xüsusda onu diqqətə çəkmək olar ki, ötən il Azərbaycanın Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə ümumi ticarət dövriyyəsi 5 faizdən çox artıb. Üzv dövlətlərə yatırılan sərmayələrin ümumi həcminin 21 milyard ABŞ dollarına çatması, eləcə də tərəfdaş ölkələrlə yaradılmış birgə investisiya fondlarının fəaliyyət göstərməsi Azərbaycanın TDT çərçivəsində iqtisadi əməkdaşlığın dərinləşdirilməsinə verdiyi töhfənin bariz göstəriciləridir. Bu mexanizmlər prioritet sahələr üzrə qarşılıqlı sərmayə qoyuluşunun genişlənməsinə və iqtisadi əlaqələrin daha da möhkəmlənməsinə xidmət edir. Yaxın illərdə Zəngəzur dəhlizi layihəsinin reallaşması isə ölkəmizin TDT-nin gücləndirilməsi istiqamətində həyata keçirdiyi fəaliyyətin effektivliyini yeni mərhələyə yüksəldərək Türk dünyası birliyinin qlobal əhəmiyyətini daha da artıracaq. Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin Hökumət başçılarının /Vitse-prezidentinin ikinci görüşünün iştirakçılarını qəbul edərkən Türk dünyasının dünənı, bu günü və sabahı ilə bağlı bütün aspektlərə toxundu və Zəngəzur dəhlizinin həm türkdilli ölkələr, həm də geniş coğrafiya üçün böyük önəm daşıdığını vurğuladı. Sitat: ***"O ki qaldı Zəngəzur dəhlizinin icrasına, orada avtomobil yolunun, təqribən, 90 faizi, dəmir yolunun isə təxminən 70 faizi hazırdır. Ümid edirəm ki, yaxın gələcəkdə bu layihə tam icra ediləcəkdir. Bilirik və çox şadıq ki, Türkiyədə də Qars-Naxçıvan dəmir yolunun tikintisinə start verilmişdir. Beləliklə, bu layihələrin uzlaşdırılması, koordinasiya şəklində icra edilməsi yeni bir önəmli beynəlxalq dəhliz açacaqdır. Bu, Orta Dəhlizin bir qolu olacaq və bizim inşa etdiyimiz dəmir yolu infrastrukturu birinci mərhələdə 15 milyon ton yükün daşınmasına hesablanıb. Amma gələcəkdə bu arta da bilər və yəqin ki, artacaq. Amma hər halda 15 milyon tonluq yeni bir dəhlizin açılması həm ölkələrimiz, həm də geniş coğrafiya üçün böyük önəm daşıyır".***

### Enerji, rəqəmsal və humanitar liderlik

Enerji təhlükəsizliyi məsələsi TDT-nin nüfuzunun güclənməsi baxımından olduqca vacibdir və bu istiqamətdə də Azərbaycanın rolu danılmazdır. Ölkəmiz zəngin enerji resursları, strateji mövqeyi və müasir infrastruktur layihələri ilə təkcə Avropa üçün deyil, həm də TDT daxilində etibarlı tərəfdaş kimi çıxış edir. Həyata keçirilən iri enerji layihələri türk dövlətləri arasında qarşılıqlı əməkdaşlığı artırır, regionda sabitliyi möhkəmləndirir və enerji sahəsində əlaqələrin davamlı inkişafına zəmin yaradır. Eyni zamanda rəqəmsal transformasiya sahəsində əməkdaşlıq da son illərdə böyük maraq kəsişməsi yaratmaqdadır. Bu mənada, innovativ texnologiyaların tətbiqi, rəqəmsal xidmətlərin genişləndirilməsi və informasiya mübadiləsinin gücləndirilməsi türk dövlətlərinin qlobal rəqabət qabiliyyətini artırır, həmçinin üzv ölkələr arasında bilik və təcrübə mübadiləsini sürətləndirir. Azərbaycan bu sahədə də lider mövqe nümayiş etdirərək rəqəmsal inkişaf strategiyalarının formalaşdırılmasında fəal iştirak edir və innovativ layihələrin həyata keçirilməsinə töhfə verir. Humanitar sahədə də Azərbaycan TDT çərçivəsində həm təşəbbüskar, həm də koordinasiyaedici rol oynayır. Ölkəmiz təhsil, elm, mədəniyyət və turizm sahələrində birgə layihələrin həyata keçirilməsinə öncülük göstərir, Türk dünyasında gənc nəsillərin qarşılıqlı anlaşma və dostluq əlaqələrinin möhkəmləndirilməsinə xidmət missiyasını uğurla yerinə yetirir. Həmçinin Azərbaycan münaqişə bölgələrinə humanitar yardımların təşkili, mədəni irsin qorunması və sosial layihələrin reallaşdırılmasında aktiv iştirak edərək TDT-nin humanitar məramını da aydın şəkildə ortaya qoyur. Hazırkı mürəkkəb geosiyasi vəziyyəti də nəzərə alsaq, bütün bunların fonunda aprelin 2-də Bakı şəhərində keçirilən görüşü xüsusi strateji əhəmiyyətli hadisə kimi qiymətləndirmək olar. Sözügedən toplantı TDT çərçivəsində əməkdaşlığın daha da dərinləşdirilməsi, konkret layihələrin müzakirəsi, prioritet sahələr üzrə birgə fəaliyyət mexanizmlərinin müəyyənləşdirilməsi və üzv dövlətlər arasında siyasi iradənin möhkəmləndirilməsi baxımından olduqca mühümdür. Eyni zamanda bu yüksək səviyyəli görüş Türk dünyasında ortaq məqsədlərə nail olmaq üçün koordinasiyanın gücləndiyini və qarşılıqlı etimadın daha da artdığını nümayiş etdirir. Görüş çərçivəsində birgə bəyanat da qəbul edilib. Bəyanatda əməkdaşlığın bütün istiqamətlərinə toxunulub, Azərbaycan Respublikasının TDT-də davam edən sədrliyinə dəstək ifadə edilib və ölkəmizin birlik, institusional potensialın gücləndirilməsi və prioritet sahələr üzrə praktiki əməkdaşlığın inkişafına yönəlmiş fəal səyləri yüksək qiymətləndirilib. Həmçinin Naxçıvan Sazişi və TDT-nin digər əsas sənədləri çərçivəsində üzv dövlətlərin öhdəlikləri bir daha təsdiqlənib və TDT çərçivəsində sıx əməkdaşlığın regionda və onun hüdudlarından kənarda sülh, sabitlik və davamlı inkişafın təşviqində mühüm rol oynadığı vurğulanıb.



Son illərin geosiyasi və geoiqtisadi mənzərəsi göstərir ki, Azərbaycan TDT çərçivəsində yalnız fəal iştirakçı deyil, eyni zamanda təşəbbüskar və istiqamətverici rol oynayan ölkədir. Bu mövqe Türk dünyasında inteqrasiyanın dərinləşməsinə, ortaq layihələrin reallaşmasına və uzunmüddətli əməkdaşlıq perspektivlərinin formalaşmasına mühüm töhfə verir. Bakıda keçirilən Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin Hökumət başçılarının/Vitse-prezidentinin ikinci görüşü də bu strategiyanın növbəti təzahürü kimi qiymətləndirilə bilər və türk dövlətləri arasında siyasi, iqtisadi və humanitar sahələrdə əməkdaşlığın daha da genişlənəcəyindən xəbər verir. Prezident İlham Əliyevin dediyi kimi: ***"Bütövlükdə, Azərbaycan Türk Dövlətləri Təşkilatının inkişafına əvvəllər və bu gün böyük töhfə verir və verəcək. Bu bizim xarici siyasətimizdə prioritet məsələlərdən biridir. Dəfələrlə müxtəlif kürsülərdən bəyan etmişdik ki, Türk dünyası bizim ailəmizdir, bizim başqa ailəmiz yoxdur. Bu ailəni gələcəyə aparmaq üçün birgə səylərin göstərilməsi, təbii ki, çox önəmlidir".***

**Nail ƏSGƏROV**

# Məşğulluğun artırılması dövlət siyasətinin əsas prioritetidir “Şirvan Aqro” heyvandarlıq kompleksi əhali məşğulluğuna və aqrar inkişafa mühüm töhfədir

**Prezident İlham ƏLİYEV:**

***“Yüzlərlə iş yeri, gözəl şərait yaradırıq. Bu müəssisənin həm Şamaxı rayonunun, həm də ümumilikdə, ölkəmizin kənd təsərrüfatının inkişafı üçün çox böyük əhəmiyyəti var. Bu nəinki Azərbaycanın, Cənubi Qafqazın ən böyük həm ətlik, həm südlük təsərrüfatıdır. Bizdə indi idxal həcminin azaldılması istiqamətində işlər aparılır. Biz elə etməliyik ki, özümüzü həm ətlə, həm südlə, süd məhsulları ilə 100 faiz təmin edək. Buna yaxınıq, amma hələ ki, buna nail ola bilməmişik. Belə təsərrüfatların fəaliyyətə başlaması bu məqsədi də təmin edəcək və gələcəkdə biz hətta ət və süd məhsullarını ixrac edə də bilərik.”***



Ölkəmizdə son illərdə onlarla müxtəlif profilli yeni müəssisənin yaradılması iqtisadi inkişafın əsas göstəricilərindən biri olmaqla yanaşı, sosial rifahın yüksəlməsində də mühüm rol oynayır. Bu proses, ilk növbədə, yeni iş yerlərinin açılmasına səbəb olur ki, bu da əhalinin məşğulluq səviyyəsinin artmasına birbaşa təsir göstərir. İşsizliyin azalması insanların həyat şəraitinin yaxşılaşmasına, gəlir imkanlarının genişlənməsinə və ümumi sosial sabitliyin möhkəmlənməsinə xidmət edir.

Respublikamızda yaradılan yeni müəssisələr sənaye, kənd təsərrüfatı, xidmət sektoru və texnologiya sahələrini əhatə edir. Bu müxtəliflik, sözsüz ki, əmək bazarında fərqli ixtisaslara olan tələbatı artırır və insanların öz bacarıqlarına uyğun iş tapmaq imkanlarını genişləndirir. Xüsusilə regionlarda müəssisələrin yaradılması həmin ərazilərdə iqtisadi fəallığın artmasına, miqrasiyanın azalmasına və yerli əhalinin doğma yurdlarında işləyib yaşamasına şərait yaradır. Bu baxımdan, Şamaxı rayonunda yeni yaradılan “Şirvan Aqro” heyvandarlıq kompleksi həm əhalinin məşğulluğunun artırılmasına, həm də insanların keyfiyyətli yerli məhsullarla təminatına xidmət edəcək. Prezident İlham Əliyev martın 23-də kompleksin açılışından sonra müəssisə əməkdaşları ilə görüşündə “Şirvan Aqro”nun fəaliyyətini həm yeni iş yerlərinin yaradılması, həm də yerli, keyfiyyətli məhsullarla təminat baxımından yüksək qiymətləndirib: ***“Yüzlərlə iş yeri, gözəl şərait yaradırıq. Bu müəssisənin həm Şamaxı rayonunun, həm də ümumilikdə, ölkəmizin kənd təsərrüfatının inkişafı üçün çox böyük əhəmiyyəti var. Bu nəinki Azərbaycanın, Cənubi Qafqazın ən böyük həm ətlik, həm südlük təsərrüfatıdır. Bizdə indi idxal həcminin azaldılması istiqamətində işlər aparılır. Biz elə etməliyik ki, özümüzü həm ətlə, həm südlə, süd məhsulları ilə 100 faiz təmin edək. Buna yaxınıq, amma hələ ki, buna nail ola bilməmişik. Belə təsərrüfatların fəaliyyətə başlaması bu məqsədi də təmin edəcək və gələcəkdə biz hətta ət və süd məhsullarını ixrac edə də bilərik”.***

Heyvandarlıq kompleksi 100 hektara yaxın ərazini əhatə edir və yaradılmasında məqsəd ölkə əhalisinin yüksəkkeyfiyyətli süd və ət məhsulları ilə təmin olunmasına, bu məhsulların ixracına, həmçinin regionun inkişafına, xüsusən də Şamaxı və ətraf rayonlarda məşğulluğun artırılmasına töhfə verməkdir. Kompleksdə 9000 baş heyvanın – 3200 baş südlük, 3000 baş ətlik mal-qaranın və 2800 baş buzovun saxlanılmasına şərait var. Hazırda burada Holşteyn-Friz, Limuzin, Aberdin-Anqus və digər cinslərdən heyvanlar saxlanılır. Ən son texnologiyalarla təchiz edilən və süni intellekt vasitələri ilə idarə olunan bu kompleks Qafqaz regionunda və MDB məkanında ən böyük heyvandarlıq müəssisələrindən biridir. Bura həm də ölkəmizdə alternativ və “yaşıl enerji”dən istifadə edən ilk heyvandarlıq kompleksidir. Kompleksdə yüksəkixtisaslı mütəxəssislərin hazırlanması üçün dünyanın qabaqcıl texnologiyalarının tətbiqini öyrədəcək Təlim-Tədris Mərkəzi də fəaliyyət göstərəcək. Müəssisədə Azərbaycanın və Cənubi Qafqazın ən böyük “Karusel” tipli süd sağımı, həmçinin “Paralel” sağım sistemləri yaradılıb. Hər bir sağım nöqtəsində süd keyfiyyətinin onlayn analizatoru quraşdırılıb. Ölkədə südün 32 dərəcədən 4 dərəcəyədək sürətli soyudulması üçün qabaqcıl sistem, həmçinin dünyadakı ən son genetik materiallar əsasında fəaliyyət göstərən, süd həcminin artırılmasını təmin edən ilk Reproduksiya Mərkəzi yaradılıb. Saxlanılan heyvanlar arasında xəstəliklərin erkən diaqnozu və tez bir zamanda müalicəsi üçün tətbiq olunan innovativ sürü idarəetmə sistemi mövcuddur. Burada real vaxtda sürü inkişafı monitorinqinin həyata keçirilməsi, kökəltmənin səmərəli idarə edilməsi və çəkinin elektron hesablanması üçün xüsusi tərəzi sistemi tətbiq olunur.

“Şirvan Aqro”nun yaradılması, qeyd etdiyimiz kimi, ilk növbədə, əhalinin məşğulluğunun artırılmasına xidmət edir. Belə ki, Şamaxı və ətraf rayonlardan 200-dən çox sakin burada işlə təmin olunub. Kompleksin ərazisində digər rayonlardan işləməyə gələnlər və xarici mütəxəssislər üçün yaşayış binasının olması sosial təminat baxımından mühüm əhəmiyyət daşıyır. Digər tərəfdən, bu cür müasir kompleksin istifadəyə verilməsi kənd təsərrüfatının mühüm sahələrindən biri olan heyvandarlığın inkişafına, eləcə də ərzaq təhlükəsizliyinin təmin olunmasına töhfədir. Layihənin icrası, ümumilikdə, regionun kənd təsərrüfatı potensialının artırılmasında da mühüm rol oynayacaq. Əminliklə demək olar ki, yeni kompleksin fəaliyyətə başlaması, həm iş imkanlarının genişlənməsinə, həm aqrar sahənin inkişafına, həm də ölkəmizin ixrac potensialının güclənməsinə müsbət təsir göstərəcək.

# “Abşeron” Batareya Enerji Saxlanc Mərkəzi: enerji təhlükəsizliyi baxımından strateji əhəmiyyətə malik layihə

Müasir dövrdə enerji sistemlərinin sabit və etibarlı işləməsi üçün istehsal güclərinin artırılması ilə yanaşı, istehsal olunan enerjinin səmərəli şəkildə idarə edilməsi və saxlanılması da vacibdir. Bu baxımdan, batareya enerji saxlanma sistemləri elektrik enerjisinin pik tələbat dövrlərində istifadəsini təmin etməklə şəbəkənin yüklənməsinin qarşısını alır, itkiləri azaldır və ümumi səmərəliliyi artırır. Prezident İlham Əliyevin iştirakı ilə bu il martın 25-də açılışı olan “AzərEnerji” Açıq Səhmdar Cəmiyyətinin (ASC) “Abşeron” Batareya Enerji Saxlanc Mərkəzinin yaradılması da həm enerji təhlükəsizliyinin möhkəmləndirilməsi, həm də dayanıqlı enerji sisteminin formalaşdırılması baxımından Azərbaycanın enerji sektorunda mütərəqqi və strateji addımlardan biridir.

Son illərdə ölkəmizdə enerji sektorunun davamlı inkişafı və müasir çağırışlara uyğunlaşdırılması istiqamətində həyata keçirilən layihələr xüsusi əhəmiyyət daşıyır. Bu mənada, Prezident İlham Əliyevin tapşırığına əsasən “Azər Enerji” ASC tərəfindən 100 faiz daxili maliyyə vəsaiti hesabına iki əsas yarımstansiyada – 500 kV-luq “Abşeron” və 220 kV-luq “Ağdaş” yarımstansiyalarının ərazilərində ümumi gücü 250 MVt, enerji tutumu isə 500 MVt/saat olan böyük enerji saxlanc mərkəzlərinin yaradılması strateji yanaşmanın bariz nümunələridir. Bu cür mərkəzlərin qurulması yalnız Azərbaycanda deyil, ümumilikdə, MDB regionunda ilkdir. Layihə çərçivəsində “Abşeron” Batareya Enerji Saxlanc Mərkəzinin ərazisində 50 akkumulyator batareya və 13 invertor konteyneri quraşdırılıb. Beynəlxalq məsləhətçi şirkətlərin (ABŞ-nin TETRA Tech və Türkiyənin EPRA) apardıqları araşdırma Azərbaycanda, təxminən, 1850 MVt gücündə bərpa olunan enerji mənbələrinin təhlükəsiz şəkildə enerji sisteminə qoşulması üçün bu cür batareya sistemlərinin yaradılmasının zəruri olduğunu göstərib. Batareya Enerji Saxlanc Mərkəzi çevikliyi ilə seçilir. Belə ki, onlar 2 saat ərzində tam doldurula və ya boşaldıla bilər. Artıq enerji, o cümlədən günəşli saatlarda istehsal olunan enerji burada toplanır və pik saatlarda – enerjiyə tələbat artan zaman avtomatik olaraq şəbəkəyə verilir. Bir sözlə, bu sistemlər enerjini yığıb saxlayır, lazım gəldikdə isə onu istifadəyə yönəldir.




Belə mərkəzin tətbiqi enerji şəbəkəsinə bir çox üstünlüklər verir. Nümunə üçün qeyd edə bilərik ki, burada SCADA sistemi ilə enerji sisteminə real vaxt rejimində nəzarət olunur, şəbəkədə sabitlik, o cümlədən tezlik və gərginlik qorunur, qəfil enerji çatışmazlıqları avtomatik tənzimlənir, qəzaların təsiri azalır və sistem daha etibarlı olur. Bundan başqa, pik saatlarda elektrikə tələbat daha rahat qarşılanır, günəş və külək enerjisindəki fasilələrin təsiri azalır, enerji sisteminin sıfırdan bərpası mümkün olur. Eyni zamanda Günəş batan saatlarda yük dəyişiklikləri daha rahat idarə edilir. Bir sözlə, Batareya Enerji Saxlanc Mərkəzinin yaradılması Azərbaycanın enerji sistemini daha müasir, çevik və dayanıqlı edir. Xüsusilə günəş və külək enerjisinin artdığı bir dövrdə bu cür saxlanc sistemləri gələcəyin enerji modelinin əsas hissəsi hesab olunur.

Azərbaycan son illərdə alternativ və bərpa olunan enerji mənbələrinin yaradılması və enerji ixracına dair mühüm layihələrə imza atır. Bu xüsusda Qarabağ, Şərqi Zəngəzur və Naxçıvanın “yaşıl enerji zonası” elan edilərək buna müvafiq işlər reallaşdırılır, eyni zamanda “yaşıl enerji”nin Qara dəniz kabeli, regional enerji dəhlizləri və digər layihələr vasitəsilə Avropa bazarlarına ixracı əsas hədəfdir. Qara dəniz kabelinin 1300 MVt “yaşıl enerji” ötürmə imkanı olacaq. Bütün bunları nəzərə alanda gələcəkdə enerji istehsalının həcminin indiki səviyyədən xeyli artacağı qənaətinə gəlmək olar. Belə olan halda saxlanc mərkəzlərinin rolu daha da ön plana çıxır və bu baxımdan, “Abşeron” Batareya Enerji Saxlanc Mərkəzi ölkəmizin enerji təhlükəsizliyinin təmin olunmasında strateji əhəmiyyətə malik layihə kimi qiymətləndirilə bilər.

**“Şərq qapısı”**

# Səlahiyyətli nümayəndə Ceyhun Cəlilov Şərurda torpaq mülkiyyətçiləri ilə görüşüb, kartof əkini ilə tanış olub





Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov, Naxçıvan Muxtar Respublikasının Baş nazirinin birinci müavini Elşad Əliyev və Şərur Rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov Şərur rayonunun torpaq mülkiyyətçiləri ilə görüşüblər.

Səlahiyyətli nümayəndə Ceyhun Cəlilov bildirib ki, muxtar respublikanın ən böyük aqrar rayonu hesab edilən Şərurda kənd təsərrüfatı sahəsində hər il uğurlu göstəricilər qeydə alınır. Qeyd olunub ki, kənd əməkçiləri dövlət qayğısı və illər ərzində qazandıqları təcrübə nəticəsində məhsul istehsalında davamlı artıma nail olurlar.

Ceyhun Cəlilov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Naxçıvan Muxtar Respublikasında su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2026-2030-cu illər üçün Tədbirlər Planı”nın təsdiq edilməsi haqqında Sərəncamının əhəmiyyətini diqqətə çatdırıb. Bildirilib ki, sənəd su ehtiyatlarından daha səmərəli istifadəni, su təsərrüfatı infrastrukturunun yenilənməsini, içməli və suvarma suyu ilə təminatın mərhələli şəkildə yaxşılaşdırılmasını nəzərdə tutur.

Vurğulanıb ki, Tədbirlər Planına uyğun olaraq muxtar respublikanın müxtəlif rayon və şəhərlərində, o cümlədən Şərur rayonunda nasos stansiyalarının və hidrotexniki qurğuların yenidən qurulması, suvarma kanallarının əsaslı təmiri və yenilənməsi həyata keçiriləcək. Bu tədbirlər kənd təsərrüfatının prioritet sahə kimi inkişafına, yerli istehsalın artmasına və əhalinin məşğulluğunun genişlənməsinə mühüm töhfə verəcək.

Görüşdə çıxış edən Şərur Rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov bildirib ki, rayon üzrə, ümumilikdə, 81 min 518 hektar torpaq sahəsi mövcuddur. Bunun 38 min 33 hektarı dövlət, 30 min 13 hektarı bələdiyyə, 13 min 472 hektarı isə xüsusi mülkiyyətə aiddir. Ümumi torpaq fondunun 15 min 725 hektarı əkinəyararlı torpaqlardır.

Qeyd edilib ki, 2025-ci ilin məhsulu üçün rayonda qəti əkin sahəsi 11 min 143,3 hektar təşkil edib. Bunun 2366 hektarı payızlıq taxıl, 3172,3 hektarı yazlıq əkinlər, 5605 hektarı isə əvvəlki illərdən qalan yem bitkiləridir. Yazlıq əkinlərin 739,85 hektarı qarğıdalı, 589,33 hektarı kartof, 175,39 hektarı soğan, 71,71 hektarı bostan, 649,62 hektarı təzə yonca, 946,4 hektarı isə digər əkinlərdən ibarət olub. Bu göstəricilər rayonun çoxşaxəli bitkiçilik ənənələrinə malik olduğunu göstərir.

Bildirilib ki, 2025-ci ildə 589,33 hektar kartof əkin sahəsindən 17 825,8 ton məhsul əldə olunub. Bu isə hər hektar üzrə 302,5 sentner orta məhsuldarlıq deməkdir.

2026-cı il üçün rayon üzrə pay torpaqlarında 2152 hektar yazlıq əkin proqnozlaşdırılıb. Bunun 430 hektarında kartof əkini nəzərdə tutulur. Eyni zamanda həyətyanı sahələrdə də 200 hektaradək kartof əkilməsi gözlənilir. Beləliklə, cari ildə rayon üzrə kartof əkin sahəsinin, ümumilikdə, 630 hektarı ötəcəyi proqnozlaşdırılır. Hazırda kartof əkini 258 hektardan çox sahədə aparılıb və proses davam etdirilir.

Qeyd olunub ki, Cəlilkənddə əkin aparılan sahə sahibkar Yaqub Tağıyevə məxsusdur. O, rayonun qabaqcıl təsərrüfatçı sahibkarlarından biridir. Sahibkarın mülkiyyətində 3000 ton tutumlu soyuducu anbar, 300 tonluq saxlanc, 2 ədəd “New Holland” markalı traktor və 12 aqreqat mövcuddur. Aqreqatlardan biri olan soğan çeşidləyicisi muxtar respublikada tətbiq edilən ilk belə texnika hesab olunur.

Əkin sahələrində istifadə olunan kartof toxumlarının yüksək reproduksiyalı olduğu və rayonda əvvəllər sınaqdan uğurla keçdiyi bildirilib. Qeyd olunub ki, toxumlar Türkiyə Respublikasından gətirilir və bu, hər hektardan 600-700 sentnerədək məhsul əldə olunmasına imkan yaradır.

Torpaq mülkiyyətçisi Yaqub Tağıyev ötən il 55 hektar sahədə kartof, 8 hektarda isə buğda əkdiyini və yüksək məhsuldarlıq əldə etdiyini bildirib. Onun sözlərinə görə, kartof üzrə hər hektardan 600 sentner, buğda üzrə isə 75 sentner məhsul götürülüb.



Cari ildə kartof əkin sahəsini 72 hektara çatdırmağı planlaşdıran sahibkar, ümumilikdə, 100-dən çox vətəndaşı işlə təmin edir. Digər torpaq mülkiyyətçiləri Hüseyn Cəfərov və Mübariz Şirəliyev də çıxış edərək Prezident İlham Əliyevin müvafiq Sərəncamına görə minnətdarlıqlarını bildiriblər. Onlar bu sənədin gələcəkdə Şərur rayonunun aqrar inkişafına mühüm töhfə verəcəyinə əmin olduqlarını qeyd ediblər.

Mübariz Şirəliyev dövlətin aqrar sahəyə göstərdiyi dəstəyi daim hiss etdiklərini bildirib. O qeyd edib ki, lizinq mexanizmləri vasitəsilə müxtəlif kənd təsərrüfatı texnikaları əldə ediblər və gələcəkdə də bu imkanlardan yararlanmaq niyyətindədirlər. Sahibkar əlavə edib ki, fəaliyyətini genişləndirərək taxıl və yonca toxumlarının yetişdirilməsi istiqamətində sertifikat əldə edib. Hazırda onun təsərrüfatında 25 ailə daimi işlə təmin olunub.

Sonda səlahiyyətli nümayəndə Ceyhun Cəlilov torpaq mülkiyyətçilərinə yaz əkin mövsümündə uğurlar arzulayıb. Bildirilib ki, görülən hazırlıq işləri bu il də bol və keyfiyyətli məhsulun əldə olunacağına əsas verir.

# Naxçıvanda Novruz bayramı münasibətilə ümumxalq şənliyi keçirilib





Martın 20-də Novruz bayramı münasibətilə “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində geniş ümumxalq şənliyi təşkil olunub.

Tədbirdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov, dövlət və hökumət nümayəndələri iştirak ediblər.

İlk olaraq “Dədə Qorqud” obrazı və Bahar qızının iştirakı ilə rəmzi qarşılanma mərasimi keçirilib, el ağsaqqalı tərəfindən xeyir-dua verilib, bayram tonqalı alovlandırılıb.

Şənlik çərçivəsində Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə müxtəlif folklor nümunələri, o cümlədən Keçəl və Kosa məzhəkəsi, “Qodu-qodu”, “Xanbəzəmə” mərasimləri, eləcə də “Çəmənli” yallısı nümayiş olunub. Müxtəlif rayonların folklor kollektivləri və musiqi qrupları çıxış edərək bayram əhval-ruhiyyəsini daha da yüksəldiblər. Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının çıxışı, milli musiqi alətlərində ifalar və rəqs kompozisiyaları böyük maraqla qarşılanıb.









Tədbir çərçivəsində Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Naxçıvan Dövlət Universiteti, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və Naxçıvan Şəhər İcra Hakimiyyəti tərəfindən təşkil olunan sərgi və stendlərə baxış keçirilib. Burada peşə təhsili, STEAM layihələri, eləcə də müxtəlif əl işləri nümayiş olunub.

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin təqdim etdiyi məhbusların əl işləri, yerli sənətkarların hazırladıqları məhsullar maraqla qarşılanıb. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən bədii gimnastika, kikboksinq və digər idman növləri üzrə nümayişlər təşkil edilib. Bundan əlavə, pəhləvan şousu təqdim olunub.

Bayram şənliyində ictimai iaşə xidməti də göstərilib.





# Kənd təsərrüfatı naziri Naxçıvan Muxtar Respublikasına səfər edib



Aprelin 1-də Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri Məcnun Məmmədov Naxçıvan Muxtar Respublikasına səfər edib.

Səfər çərçivəsində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov və kənd təsərrüfatı naziri Məcnun Məmmədov Naxçıvan şəhərinin mərkəzi meydanında ucaldılmış Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət ediblər. Abidə önünə gül dəstələri düzülüb, Ulu Öndərin xatirəsi ehtiramla yad edilib.



# Ali Məclis Strasburqda Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinin 50-ci sessiyasında təmsil olunur

31 mart-2 aprel 2026-cı il tarixlərdə Strasburqda Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresinin 50-ci sessiyası keçirilir.

Beynəlxalq tədbirdə Azərbaycan nümayəndələri də iştirak edirlər. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə təmsil olunur.

Sessiyanın müzakirələrinin mərkəzində müasir demokratiyanın üzləşdiyi ciddi çağırışlar – böhran vəziyyətində yerli demokratiya, təhlükəsizlik və müdafiə, regional inkişaf, yeni texnologiyalar və sosial hüquqlar kimi məsələlər dayanır.

Qeyd edək ki, konqresin 50-ci sessiyası gündəlikdəki məsələlərlə bağlı müzakirə və çıxışlarla davam edir.



# Ali Məclisin komitə iclaslarında Nazirlər Kabinetinin hesabatı müzakirə olunub





Martın 31-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin iclası keçirilib.

Komitə sədri Əjdər Əliyev iclasın gündəliyinə "Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyəti haqqında hesabatı"nın müzakirəsinin daxil edildiyini bildirib.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının Hüquq şöbəsinin müdiri Reyhanə Əsgərova, Maliyyə və büdcə məsələləri şöbəsinin müdiri Tural Şirəlizadə "Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyəti haqqında hesabatı" barədə məlumat verib, səsləndirilən fikirlərə münasibət bildirib, deputatların suallarına aydınlıq gətiriblər.

Müzakirə olunan məsələ ilə əlaqədar Hüquq siyasəti komitəsinin rəyi oxunub, "Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyəti haqqında hesabatı" Ali Məclisin müzakirəsinə tövsiyə olunub.

***

Aprelin 1-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinin növbəti iclası keçirilib.

Komitə sədri Mübariz Bayramov iclasın gündəliyinə "Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyəti haqqında hesabatı"nın müzakirəsinin daxil edildiyini bildirib.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının İqtisadiyyat şöbəsinin müdir müavini, şöbə müdiri vəzifələrini müvəqqəti icra edən Yaqub Məmmədov, Aqrar və ekoloji məsələlər şöbəsinin müdiri Orxan Babayev, Maliyyə və büdcə məsələləri şöbəsinin müdiri Tural Şirəlizadə, İnfrastruktur təminatı şöbəsinin Tikinti və şəhərsalma sektorunun müdiri Vüqar Kazımov hesabat barədə məlumat verib, deputatlar tərəfindən səsləndirilən fikirlərə münasibət bildirib, suallara aydınlıq gətiriblər.



Müzakirə olunan məsələ ilə əlaqədar İqtisadi siyasət komitəsinin rəyi oxunub, "Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyəti haqqında hesabatı" Ali Məclisin müzakirəsinə tövsiyə olunub.

***

Aprelin 2-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Humanitar siyasət komitəsinin növbəti iclası keçirilib.

Komitə sədri Canməmməd Canməmmədov iclasın gündəliyinə "Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyəti haqqında hesabatı"nın müzakirəsinin daxil edildiyini bildirib.

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Aparatının Humanitar məsələlər şöbəsinin müdiri Tarverdi Məmmədov hesabat barədə məlumat verib.

Sonra gündəlikdə duran məsələ ətrafında müzakirələr aparılıb, Nazirlər Kabineti Aparatının Humanitar məsələlər şöbəsinin müdiri Tarverdi Məmmədov, Sosial məsələlər şöbəsinin müdir müavini, şöbə müdiri vəzifəsini müvəqqəti icra edən Hüseyn Hacıyev, Maliyyə və büdcə məsələləri şöbəsinin müdiri Tural Şirəlizadə və İqtisadiyyat şöbəsinin müdir müavini, şöbə müdiri vəzifəsini müvəqqəti icra edən Yaqub Məmmədov deputatlar tərəfindən səsləndirilən fikirlərə münasibət bildirib, suallara aydınlıq gətiriblər.

Sonda komitənin rəyi oxunub, "Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyəti haqqında hesabatı" Ali Məclisin müzakirəsinə tövsiyə olunub.

***

Aprelin 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sosial siyasət komitəsinin növbəti iclası keçirilib.

Komitə sədri Zeynəb Quliyeva iclasın gündəliyinə "Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyəti haqqında hesabatı"nın müzakirəsinin daxil edildiyini bildirib.

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Aparatının Sosial məsələlər şöbəsinin müdir müavini, şöbə müdiri vəzifəsini müvəqqəti icra edən Hüseyn Hacıyev hesabat barədə məlumat verib.

Sonra gündəlikdə duran məsələ ətrafında müzakirələr aparılıb, Nazirlər Kabineti Aparatının Sosial məsələlər şöbəsinin müdir müavini, şöbə müdiri vəzifəsini müvəqqəti icra edən Hüseyn Hacıyev, Maliyyə və büdcə məsələləri şöbəsinin müdiri Tural Şirəlizadə və İqtisadiyyat şöbəsinin müdir müavini, şöbə müdiri vəzifəsini müvəqqəti icra edən Yaqub Məmmədov deputatlar tərəfindən səsləndirilən fikirlərə münasibət bildirib, suallara aydınlıq gətiriblər.



Sonda komitənin rəyi oxunub, "Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2025-ci ildə fəaliyyəti haqqında hesabatı" Ali Məclisin müzakirəsinə tövsiyə olunub.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları "Heydər Əliyev-2026" birgə təlimində iştirak edəcəklər

Azərbaycan ilə Türkiyə arasında imzalanmış hərbi əməkdaşlıq haqqında sazişə uyğun olaraq Türkiyənin Qars şəhərində keçiriləcək "Heydər Əliyev-2026" birgə təliminə hazırlıq məqsədilə Azərbaycan-Türkiyə dövlət bayraqlarının dəyişmə mərasimi keçirilib. Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib.

Bildirilib ki, Əlahiddə Ümumqoşun Ordunun (ƏÜO) Qərargahından hərəkətə başlayan bayraq taqımı Naxçıvan şəhərindən Sədərək sərhəd-keçid məntəqəsinə – Araz çayı üzərindəki "Ümid" körpüsünə doğru yürüşə başlayıb. Eyni zamanda Türkiyənin bayraq taqımı da Qars şəhərindən mərasimin keçiriləcəyi ünvana doğru yürüş edib.

"Ümid" körpüsündə Azərbaycanın Dövlət Himni və Türkiyənin İstiqlal Marşı ifa edildikdən sonra bayraqların dəyişmə mərasimi olub.

Sonra təlimə cəlb ediləcək şəxsi heyət və hərbi texnikaların təlim yerinə yola salınması münasibətilə keçirilən tədbirdə ƏÜO komandanı, general-leytenant Kənan Seyidov çıxış edərək birgə hərbi təlimin əhəmiyyətindən danışıb, təlim iştirakçılarına uğurlar arzulayıb.

Tədbirdən sonra təlimə cəlb ediləcək bölmələr Naxçıvan şəhərindən yola düşüblər.



Qeyd edək ki, təlimin keçirilməsində məqsəd müasir döyüşün prinsiplərinə uyğun birgə əməliyyatların planlaşdırılması və icrası, koordinasiyanın təşkil edilməsi, döyüşün hərtərəfli təminatı üzrə təcrübə mübadiləsinin aparılması və şəxsi heyətin bilik və bacarıqlarının artırılmasından ibarətdir.

Təlimin planına əsasən müxtəlif şəraitlərdə döyüş, eyni zamanda xüsusi tapşırıqlar icra olunacaq.

# “Stratcom Summit 26”

## Azərbaycanın beynəlxalq strateji kommunikasiya sahəsində aktiv rolu

**Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:**

***“Azərbaycan media sahəsində bir sıra mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi edir, bu istiqamətdə daim mühüm təşəbbüslərlə çıxış edir. Biz milli media strategiyamızı beynəlxalq təcrübə ilə uzlaşdıraraq jurnalistlərin peşəkarlığının artırılmasına, faktlara əsaslanan xəbərlərin yayılmasına və media savadlılığının inkişafına xüsusi diqqət yetiririk. Eyni zamanda biz regional əməkdaşlıq vasitəsilə ortaq informasiya platformalarının yaradılmasını dəstəkləyirik”.***




Azərbaycanın informasiya-kommunikasiya sahəsindəki beynəlxalq uğurları son illərdə əhəmiyyətli dərəcədə artıb və ölkənin həm diplomatik, həm də mədəni imicinin möhkəmlənməsində əsas rol oynamaqdadır. Xüsusilə Vətən müharibəsində qazanılan tarixi zəfərdən sonra respublikamızın nəinki hərbi-siyasi, iqtisadi nüfuzu güclənib, media, informasiya və kommunikasiya siyasəti də dünya miqyasında güclü dəstək əldə edib. Bu da təsadüfi deyil. Çünki Azərbaycan Vətən müharibəsində yalnız hərbi-siyasi gücünü deyil, həm də informasiya-kommunikasiya sahəsində diplomatik bacarığını tam şəkildə nümayiş etdirib. Başqa sözlə, bu savaş, sadəcə, döyüş meydanında, siyasi masada deyil, həm də informasiya cəbhəsində ölkəmizin tam üstünlüyü ilə yekunlaşıb. Prezident İlham Əliyevin 44 gün ərzində 11 ölkənin 26 KİV-nə verdiyi müsahibələr beynəlxalq hüququn prinsiplərini, tarixi həqiqətləri və siyasi reallıqları əks etdirərək bunu qəti şəkildə göstərib. Müharibədən sonra zəfər rəmzi sayılan Şuşa şəhərində hər il keçirilən Qlobal Media forumları həm ölkə və iştirakçı sayı baxımından, həm də mövzuların aktuallığına görə Azərbaycanın beynəlxalq səviyyədə informasiya-kommunikasiya sahəsindəki diplomatiyasının nüfuzunu nümayiş etdirir. Prezident İlham Əliyev ölkəmizin bu istiqamətdəki uğurlarını yüksək dəyərləndirərək deyib: ***“Azərbaycan media sahəsində bir sıra mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi edir, bu istiqamətdə daim mühüm təşəbbüslərlə çıxış edir. Biz milli media strategiyamızı beynəlxalq təcrübə ilə uzlaşdıraraq jurnalistlərin peşəkarlığının artırılmasına, faktlara əsaslanan xəbərlərin yayılmasına və media savadlılığının inkişafına xüsusi diqqət yetiririk. Eyni zamanda biz regional əməkdaşlıq vasitəsilə ortaq informasiya platformalarının yaradılmasını dəstəkləyirik”.***

İnformasiya-kommunikasiya sahəsində əldə edilən nailiyyətlərin nəticəsidir ki, ölkəmiz bu istiqamətdə təşkil olunan beynəlxalq sammitlərdə, forumlarda və strateji kommunikasiyaya dair tədbirlərdə fəal iştirak edir. Bir neçə gün öncə, daha dəqiq desək, martın 27-si və 28-də Türkiyə Prezidenti Administrasiyasının İctimaiyyətlə Əlaqələr Departamentinin təşkilatçılığı ilə İstanbul şəhərində təşkil olunan Beşinci Beynəlxalq Strateji Kommunikasiya Sammiti – “Stratcom Summit 26” daha bir mötəbər tədbir kimi ölkəmizin növbəti diplomatik uğuru kimi dəyərləndirilə bilər.

Sammitin əhəmiyyəti barədə onu diqqətə çəkmək olar ki, bu mötəbər tədbir qlobal miqyasda baş verən geosiyasi və kommunikasiya transformasiyaları fonunda strateji kommunikasiya sahəsində aktual çağırışların müzakirəsi üçün mühüm platforma rolunu oynayır. Tədbirdə ənənəvi olaraq dövlət qurumlarının nümayəndələri, beynəlxalq ekspertlər, strateji kommunikasiya sahəsi üzrə məsul şəxslər, qabaqcıl mütəxəssislər və akademik dairələrin təmsilçiləri iştirak ediblər. Budəfəki sammit çərçivəsində keçirilən panel müzakirələrdə müasir kommunikasiya mühitində narrativlərin rolu, qlobal informasiya axınının dinamikası, rəqəmsal texnologiyaların təsiri və böhran dövrlərində informasiya idarəçiliyinin əhəmiyyəti kimi məsələlər ətrafında fikir mübadiləsi aparılıb. “Rəqəmsal kommunikasiya ekosistemində qlobal ictimai rəyin transformasiyası” mövzusunda panel sessiyada çıxış edən Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov qeyd edib ki, rəqəmsal kommunikasiya mühitində ictimai rəy qlobal və dinamik xarakter alaraq həm yeni imkanlar, həm də dezinformasiya və etimad böhranı kimi neqativ nəticələr yaratmışdır. Bu proseslərin effektiv idarə olunması üçün media savadlılığının artırılması, yerli kontentin təşviqi, texnoloji həllərin tətbiqi və institusional əməkdaşlığın gücləndirilməsinin zəruriliyini vurğulayan Əhməd İsmayılov bildirib ki, strateji kommunikasiyanın proaktiv əsasda qurulması və beynəlxalq əməkdaşlığın genişləndirilməsi dayanıqlı və etibarlı informasiya mühitinin formalaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

“Stratcom Summit 26” çərçivəsində Azərbaycanın Medianın İnkişafı Agentliyinin (MEDİA) İcraçı direktoru Əhməd İsmayılov ilə Türkiyə Prezidenti Administrasiyasının İctimaiyyətlə Əlaqələr Departamentinin rəhbəri Burhanettin Duran arasında ikitərəfli görüş də keçirilib. Dialoq zamanı Azərbaycan ilə Türkiyə arasında media sahəsində mövcud strateji tərəfdaşlıq münasibətlərinin daha da genişləndirilməsi, xüsusilə dezinformasiya ilə mübarizə istiqamətində birgə fəaliyyətin gücləndirilməsi məsələləri müzakirə olunub. Görüşün sonunda “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi ilə Türkiyə Prezidenti Administrasiyasının İctimaiyyətlə Əlaqələr Departamenti arasında Azərbaycan – Türkiyə Birgə Media Platformasının Birgə İşçi Komissiyasının və Komitələrinin yaradılması haqqında Anlaşma Memorandumu” imzalanıb. Sənəd tərəflər arasında institusional əməkdaşlığın daha da dərinləşdirilməsini, birgə fəaliyyət mexanizmlərinin təkmilləşdirilməsini və koordinasiyanın gücləndirilməsini nəzərdə tutur. Əminliklə demək olar ki, memorandum regionda informasiya diplomatiyasının daha da güclənməsinə və hər iki ölkənin beynəlxalq media sahəsində nüfuzunun artırılmasına xidmət edəcək.

Ümumilikdə, onu vurğulamaq olar ki, “Stratcom Summit 26”da təmsilçilik Azərbaycanın qazandığı təcrübə və strategiyaları beynəlxalq ictimaiyyətə təqdim etməsi üçün əlverişli imkanlar yaradıb, peşəkar kommunikasiya sahəsində etibarlı tərəfdaş kimi tanınmasını təmin etməklə ölkəmizin beynəlxalq aləmdə strateji kommunikasiya sahəsində aktiv rolunu göstərib. Həmçinin dünya üzrə tanınmış kommunikasiya mütəxəssislərini bir araya gətirən bu mötəbər platforma Azərbaycan nümayəndələrinin ən son trendlər, innovativ yanaşmalar və uğurlu kommunikasiya strategiyaları barədə zəngin biliklər əldə etməsinə geniş imkanlar açıb. Bu biliklər isə təbii olaraq ölkədə informasiya siyasətinin və PR (ictimaiyyətlə əlaqələr) texnologiyalarının inkişafına böyük töhfə verəcək. Bundan əlavə, sammit iştirakçıları arasında dövlət qurumlarının nümayəndələri, beynəlxalq ekspertlər, strateji kommunikasiya sahəsi üzrə məsul şəxslər, qabaqcıl mütəxəssislər və akademik dairələrin yer aldığını nəzərə alsaq, bu sayədə əlverişli əməkdaşlıq imkanlarının yaranacağını deyə bilərik. Bu da gələcəkdə birgə layihələrin icrasına və Azərbaycanın kommunikasiya sahəsində lider mövqeyinin möhkəmlənməsinə xidmət edəcək. Tədbir, həmçinin Azərbaycanın strateji məqsədlərini, regional və qlobal məsələlərdə mövqeyini beynəlxalq ictimaiyyətə effektiv şəkildə çatdırmağa imkan verən güclü tribuna rolunu da oynayıb. Bütün bu amilləri əldə rəhbər tutaraq deyə bilərik ki, “Stratcom Summit 26” Azərbaycan üçün həm informasiya-kommunikasiya sahəsindəki nailiyyətlərini göstərən diplomatik platforma kimi həm də ölkənin beynəlxalq nüfuzunun, peşəkarlığının və strateji baxışının, gələcək perspektivlərinin nümayiş olunduğu mühüm tədbir olaraq tarixə düşdü.

**“Şərq qapısı”**

# Muxtar respublikada su ehtiyatları artır





Naxçıvanın bərəkətli torpaqları və zəhmətkeş insanları bu yurd yerini aqrar regiona çevirib. Muxtar respublika əhalisinin mühüm bir hissəsinin kəndlərdə məskunlaşması təsərrüfatın müxtəlif sahələrinin inkişafına təkan verib. Odur ki, iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edən muxtar respublikada bu sahənin inkişafı daim diqqət mərkəzində saxlanılır, müvafiq Dövlət proqramları qəbul edilir. Məlumdur ki, aqrar sektorda məhsuldarlığın artırılmasına təsir göstərən mühüm amillərdən biri də istehsalçıların suvarma suyu ilə təmin olunmasıdır. Bu baxımdan, Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə təsdiq edilən “Naxçıvan Muxtar Respublikasında su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2026-2030-cu illər üçün Tədbirlər Planı” muxtar respublikada su təhlükəsizliyinin təmin olunması, dayanıqlı su mənbələrindən istifadənin genişləndirilməsi və mövcud resurslardan daha səmərəli yararlanmaq baxımından mühüm əhəmiyyət kəsb edir. Digər tərəfdən, ilin son aylarından başlayaraq düşən qar və son dövrlərdə qeydə alınan yağıntılar Naxçıvan Muxtar Respublikasının su ehtiyatlarının bərpasına da müsbət təsir göstərir.

### *Kənd təsərrüfatı naziri təsərrüfatlara və su obyektlərinə baş çəkib*

Ötən ilin quraqlıq keçməsi kənd təsərrüfatına da öz mənfi təsirlərini göstərmişdir. Lakin muxtar respublikada su təhlükəsizliyinin təmin olunması ilə bağlı qəbul edilən Tədbirlər Planının icrası istiqamətində başlanılan işlər, habelə “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”na uyğun olaraq həyata keçirilən müvafiq tədbirlər kənd təsərrüfatı istehsalçılarına da stimul verib. Hazırda Əlincəçaydan su götürən və Culfa rayonu ərazisində yerləşən Bənəniyar su anbarını qidalandıran kanalın yenidən qurulması işləri davam etdirilir. Layihə çərçivəsində, ümumilikdə, 6 550 metr uzunluğunda kanalın yenilənməsi nəzərdə tutulur. Naxçıvan Muxtar Respublikasında səfərdə olan kənd təsərrüfatı naziri Məcnun Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti Əlincəçay-Bənəniyar su kanalına və Bənəniyar su anbarına baxış keçirib.

Sonra nazir Ordubad rayonunun Dəstə kəndində təsərrüfatlara baş çəkib, fermerlərlə görüşüb. Görüşdə, əsasən, qurulacaq su infrastrukturuna paralel olaraq kooperativlərin yaradılması, torpaq və su resurslarından səmərəli istifadə olunması məsələləri müzakirə edilib. Ardınca aqrar sahəyə dövlət dəstəyi tədbirləri, kənd təsərrüfatının inkişafı, suvarma sistemlərinin genişləndirilməsi istiqamətində stimullaşdırıcı tədbirlər və digər mövzularda fikir mübadiləsi aparılıb.

Mənbəyi Araz çayı olan “Araz-1” və “Araz-2” nasos stansiyalarının yenidənqurma işləri və su xəttinin çəkilişi prosesi ilə də tanışlıq olub. Bu nasos stansiyaları vasitəsilə Babək rayonunun Nehrəm qəsəbəsi, Araz və Çeşməbasar kəndlərinin torpaq sahələri suvarılır. Hazırda “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın icrasına uyğun olaraq layihə üzrə tikinti işləri mərhələli şəkildə davam etdirilir. Layihə tam başa çatdıqdan sonra Nehrəm qəsəbəsindəki 1000 hektar torpaq sahəsi ilə yanaşı, əlavə olaraq 2000 hektara yaxın suvarılan torpaq sahəsinin də su təminatı yaxşılaşdırılacaq.

Səfər iştirakçıları Şərur rayonunda kartof, tütün sahələrinə baş çəkib, rayonda su kanallarının mövcud vəziyyəti ilə tanış olub, kənd təsərrüfatı sahələrinə suvarma suyunun səmərəli və itkiyə yol verilmədən çatdırılması üçün görülən işlərlə maraqlanıblar.

Həyata keçiriləcək tədbirlərin başlıca məqsədi torpaqlardan səmərəli istifadə etməklə kənd təsərrüfatı və ərzaq məhsulları istehsalının artımına nail olmaq, daxili bazarı qorumaq və kəndlərdə əhalinin məşğulluğunun təmin edilməsidir.



# 31 Mart soyqırımı təkcə Azərbaycan xalqının deyil, bəşər tarixinin ən qanlı faciələrindəndir



Vüqar RƏHİMZADƏ
*Milli Məclisin deputatı*

**1998-ci ildən başlayaraq hər il 31 Mart "Azərbaycanlıların Soyqırımı Günü" kimi dövlət səviyyəsində qeyd olunur. Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırımı cinayətləri qurbanlarının xatirəsini anmaq məqsədilə 1998-ci il martın 26-da Ulu Öndər Heydər Əliyev "Azərbaycanlıların soyqırımı haqqında" Fərman imzaladı. Bu Fərmanla martın 31-i Azərbaycanlıların Soyqırımı Günü elan edildi. Ulu Öndər Heydər Əliyev sənədin icrasının ardıcıl və mütəşəkkil şəkildə həyata keçirilməsi ilə bağlı 30 mart 1999-cu ildə Tədbirlər Planını təsdiq etdi.**




1918-ci ilin mart-aprel aylarında Bakı Sovetinin mandatı altında fəaliyyət göstərən daşnak-bolşevik silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla törədilmiş kütləvi qırğın öz amansızlığına və miqyasına görə təkcə Azərbaycan xalqının deyil, bəşər tarixinin ən qanlı faciələrindəndir. 1918-ci ilin 30 mart-3 aprel tarixlərində Bakı şəhərində, eləcə də Qarabağ, Naxçıvan, Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Salyan, Zəngəzur, İrəvan və digər ərazilərdə Bakı Sovetinin qoşunları və daşnak erməni silahlı dəstələri 30 mindən çox azərbaycanlını qətlə yetirmiş, 10 minlərlə insanı öz doğma torpaqlarından didərgin salmışlar. 1918-ci ilin mart hadisələri tarixdə yalnız mülki əhaliyə qarşı törədilmiş soyqırımı kimi tanınmamalıdır. Bu qanlı olaylar həm də Azərbaycanın yaşayış məntəqələrinin vandallara xas olan üsullarla dağıdılması, maddi mədəniyyət abidələrinin, məscid və qəbiristanlıqların yerlə-yeksan edilməsi kimi antibəşəri cinayətlər olaraq tarixin yaddaşına həkk edilməlidir. Sonrakı dövrlərdə daha da azğınlaşan erməni millətçiləri qeyri-insani əməllərini davam etdirib, Qarabağ, Zəngəzur, Naxçıvan, Şirvan, İrəvan və digər bölgələrdə kütləvi qətllər, talanlar və etnik təmizləmələr həyata keçiriblər. Dövlət başçısı İlham Əliyevin qeyd etdiyi kimi, tarixi Azərbaycan torpaqları olan Qarabağ və Zəngəzura XIX əsrin əvvəllərindən başlayaraq erməni əhalisinin yerləşdirilməsi, demoqrafik vəziyyətin zorla dəyişdirilməsi, 1905, 1918-ci illərdə azərbaycanlı əhalini qorxutmaq və qovmaq məqsədi güdən kütləvi qırğınlar, 1920-ci illərdə Zəngəzurun Ermənistana verilməsi, 1948-1953-cü illərdə yüz minlərlə azərbaycanlının indiki Ermənistan ərazisindəki əzəli yurdlarından köçürülməsi xalqımıza qarşı erməni təcavüzünün qanlı səhifələrindəndir.

Tarixin səhifələri vərəqləndikcə yeni-yeni faktlar, erməni vəhşiliyinin tükürpərdən məqamları üzə çıxır. Aparılan araşdırmalar nəticəsində təkzibolunmaz arxiv sənədləri, soyqırımlarını təsdiqləyən çoxsaylı dəlil-sübutlar aşkarlanır. Şamaxıda baş vermiş hadisələr ilə əlaqədar ilkin mənbələrin böyük hissəsi sovet dövründə cinayəti ört-basdır etmək üçün məhv olunduğuna görə erməni cinayətlərinin tam mənzərəsi bu günə qədər formalaşmayıb. Ekspertlərin rəyinə əsasən Şamaxıda ermənilər tərəfindən 7 min nəfərin, o cümlədən 1653 qadın və 965 uşağın öldürüldüyü bildirilir. Bu faciənin tədqiqi məqsədilə 1918-ci il iyulun 15-də yaradılmış Fövqəladə İstintaq Komissiyası tərəfindən həmin dövrdə Şamaxı qəzasındakı 120 kəndin 86-nın erməni təcavüzünə məruz qaldığı təsdiqlənib. Yerli tədqiqatçılar tərəfindən də Şamaxı hadisələri ilə bağlı müvafiq araşdırmalar aparılıb. Yüz nəfərə yaxın şahiddən toplanan xatirə və məlumatlar əsasında müəyyən edilib ki, erməni cinayətkarları Şamaxı şəhərində, təqribən, 14-16 min, onun 40 kənd və obasında 6-8 min nəfəri qətlə yetiriblər. Şamaxı qəzasından didərgin düşənlərin sayı isə 18 min nəfərdən çox olub. Eyni zamanda onu da qeyd edək ki, Quba qırğınları zamanı şəhərdə öldürülənlərin təxmini sayının 2900-dək, Quba qəzası üzrə, ümumilikdə isə 4000 nəfərdən artıq olduğu qeyd olunur. Bu soyqırımı nəticəsində Quba qəzasının 122 kəndi tamamilə dağıdılıb, 2750-dən çox ev tamamilə yandırılıb.

Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra qarşıya qoyulan əsas hədəflərdən biri, təbii ki, həqiqətlərimizin dünya ictimaiyyətinə çatdırılması, tariximizin saxtalaşdırılmasına yol verilməməsi oldu. Ulu Öndərin müstəqil Azərbaycan Respublikasına rəhbərlik etməyə başlayarkən ilk görüşünün məhz ziyalılarla olması da özündə mühüm çağırışları ehtiva etdi. Ulu Öndər Heydər Əliyevin hakimiyyəti illərində tariximizin hər bir səhifəsinin öyrənilməsi, indiki və gələcək nəsillərə çatdırılması əsas prioritetlər sırasında oldu.

Bu reallıq hər zaman xüsusi qeyd edilir ki, müstəqilliyimizin bərpasının ilk illərində ölkəyə rəhbərlik edənlərin idarəçilik qabiliyyətinin olmaması, öz şəxsi ambisiyalarını dövlət maraqlarından üstün tutmaları ucbatından beynəlxalq arenada Azərbaycan haqqında məlumatsızlıq erməni yalanlarının ayaq tutub yeriməsinə yol açmışdı. Lakin Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı Azərbaycanın diplomatik mübarizədə qələbəsini təmin etdi, ölkəmizin ətrafında yaradılan informasiya blokadası yarıldı, ermənilərin zaman-zaman azərbaycanlılara və türklərə qarşı həyata keçirdikləri soyqırımlar, deportasiyalar dünya ictimaiyyətinə çatdırıldı. Xalqımızın tarixi keçmişinə obyektiv qiymət vermək və ermənilərin havadarlarının dəstəyi ilə iki yüz il ərzində həyata keçirdikləri soyqırımı siyasətinin faciəvi nəticələrini üzə çıxarmaq imkanı yarandı. Mart soyqırımı və digər erməni vəhşilikləri haqqında həqiqətlərin dünyaya çatdırılması üçün Azərbaycan dövləti bütün zəruri addımları atmağa başladı. Qeyd etdiyimiz kimi, Ümummilli Lider Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı Fərmanla 31 Mart – Azərbaycanlıların Soyqırımı Günü elan edildi. Bununla yanaşı, Ulu Öndər Heydər Əliyevin 1997-ci il 18 dekabr tarixli "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" Fərmanı da Ermənistan SSR ərazisindən azərbaycanlıların deportasiyasının hərtərəfli tədqiq edilməsi, bu cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Bu fərmanlar təkcə tariximizin qanlı səhifələrinin öyrənilməsi və yaddaşlarda həkk olunması ilə deyil, erməni şovinizmi və terrorizminin ifşa olunması baxımından da əhəmiyyətlidir.

Son 22 ildən artıq dövrdə Ulu Öndər Heydər Əliyevin siyasi kursunu bütün istiqamətlərdə uğurla davam etdirən Prezident İlham Əliyev azərbaycanlılara qarşı törədilən qanlı cinayətlər barədə həqiqətlərin ölkə və dünya ictimaiyyətinə daha geniş və dolğun şəkildə çatdırılması məqsədilə 2018-ci ildə, Mart soyqırımının 100 illiyi ərəfəsində Sərəncam imzaladı. Bu məqsədlə xüsusi Tədbirlər Planı hazırlanaraq həyata keçirildi. Bu mühüm məqamı da xüsusi qeyd etməliyik ki, 2007-ci ilin aprelində Quba stadionunun təmiri ilə əlaqədar aparılan qazıntı işləri nəticəsində burada kütləvi məzarlıq aşkarlandı. Məzarlıqdan tapılan insanların cəsədləri üzərində tibbi ekspertiza, antropoloji araşdırmalar aparıldı. Məzarlıqda 500-dək insan kəlləsi vardı. Onlardan 50-dən çoxu uşaqlara, 100-dən çoxu isə qadınlara aid idi. Bu insanların 1918-ci ildə ermənilərin Qubada törətdikləri soyqırımının qurbanları olduğu sübuta yetirildi. Bu həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycan xalqının gələcək nəsillərinin milli yaddaşının qorunması və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədilə Prezident İlham Əliyev 2009-cu ildə Quba şəhərində "Soyqırımı memorial kompleksi"nin yaradılmasına dair Sərəncam imzaladı. Memorial kompleks 2012-2013-cü illərdə Quba şəhərində Qudyalçayın sol sahilində inşa edildi və 2013-cü ildə açılışı oldu. Dövlət başçısı İlham Əliyev Soyqırımı memorial kompleksinin açılış mərasimində bir daha bu həqiqətləri diqqətə çatdırdı ki, 1918-ci ilin mart-iyul aylarında erməni quldur dəstələri Azərbaycanın, demək olar ki, bütün ərazilərində dinc əhaliyə qarşı soyqırımı törətmişlər. Beş ay ərzində 50 mindən çox soydaşımız erməni faşizminin qurbanı olmuşdur. Bakıda, Qubada, Şamaxıda, Qusarda, İrəvanda, Naxçıvanda, Zəngəzurda, Qarabağda, Lənkəranda, demək olar ki, bütün Azərbaycan torpaqlarında bizə qarşı soyqırımı törədilmişdir. Bakı soyqırımı, Quba soyqırımı, İkinci Dünya müharibəsində erməni faşizminin törətdiyi cinayətlər və keçən əsrin sonlarında növbəti dəfə erməni faşizminin təzahürləri Azərbaycan tarix elmində geniş şəkildə tədqiq edilməlidir.

Ermənilərin tarixboyu xalqımıza qarşı törətdikləri bütün cinayətlərin cavabı 2020-ci ildə 44 günlük Vətən müharibəsində, həmçinin 2023-cü ilin sentyabrında həyata keçirilən birgünlük antiterror tədbirlərində qətiyyətlə verildi. Soyqırımı qurbanlarının, şəhidlərimizin qısasını rəşadətli Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə döyüş meydanında aldı. 30 illik işğala son qoyuldu, ərazi bütövlüyümüz və suverenliyimiz bərpa edildi, ədalət zəfər çaldı. Hazırda suverenliyimizin tam bərpası ilə yeni dövrə qədəm qoyan Azərbaycan dövləti informasiya cəbhəsində üstünlüyümüzü qorumaq üçün qətiyyət nümayiş etdirir, səylərini artırır. Dövlət başçısı İlham Əliyevin bəyan etdiyi kimi, işğala, etnik təmizləməyə və soyqırımına məruz qalmış, suverenliyini, ərazi bütövlüyünü və ləyaqətini güc tətbiqi ilə bərpa etmiş, daha sonra isə o zaman məğlub olmuş düşmənə sülh təklif etmiş ölkə olmağımız beynəlxalq ictimaiyyətlə paylaşa biləcəyimiz nadir bir təcrübədir.

# 31 Mart – Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş tədbirlər keçirilib



AMEA Naxçıvan Bölməsində 31 Mart – Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş elmi konfrans təşkil olunub.

Tədbiri giriş sözü ilə açan AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev 31 Mart hadisələrinin Azərbaycan xalqının tarixində ən faciəli və ağrılı səhifələrdən biri olduğunu vurğulayıb. O qeyd edib ki, 1918-ci ilin mart hadisələri zamanı xalqımıza qarşı məqsədyönlü şəkildə kütləvi qırğınlar törədilmiş, yaşayış məntəqələri dağıdılmış, kəndlər yandırılmış, minlərlə günahsız insan amansızcasına qətlə yetirilmişdir.

Bölmə sədri vurğulayıb ki, bu gün Azərbaycan dövləti öz gücü və qətiyyəti ilə tarixi ədalətin bərpası istiqamətində mühüm addımlar atır. O bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi bərpa olunub. Bu nailiyyətin xalqımızın milli birliyinin və siyasi iradəsinin təntənəsi olduğunu qeyd edən akademik, Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə olunan uğurların Azərbaycanın beynəlxalq mövqeyini daha da möhkəmləndirdiyini xüsusi vurğulayıb.

Sonra Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun elmi işçisi Səfər Əliyev "Azərbaycan tarixində 1918-ci il faciələri: Daşnaksütyun və bolşevik qüvvələrinin fəaliyyətinin analizi" mövzusunda məruzə edib. Məruzədə 1918-ci il hadisələrinin mahiyyəti və həmin dövrdə törədilən qırğınların ağır nəticələri geniş şəkildə təhlil olunub.

Daha sonra həmin institutun elmi işçisi Nurlana Əliyeva "Mart soyqırımı və tarixi yaddaş siyasəti" mövzusunda məruzə edib. O bildirib ki, 1918-ci il mart hadisələri xalqımızın yaddaşında dərin iz buraxmışdır. Məruzəçi, həmçinin 1905-1907-ci illərdə baş verən kütləvi qırğınlara da toxunub.

Konfransda bu faciələrin unudulmamasının və gələcək nəsillərə çatdırılmasının vacibliyi vurğulanıb.

Naxçıvan Dövlət Universitetində 31 Mart – Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş tədbir keçirilib.

Əvvəlcə İncəsənət fakültəsinin müəllim və tələbələri tərəfindən çəkilmiş 31 Mart soyqırımı ilə bağlı 40-a yaxın rəsm əsərinin nümayiş olunduğu sərgiyə baxış olub.



Ardınca Ümummilli Lider Heydər Əliyevin, torpaqlarımız uğrunda canlarını fəda etmiş şəhidlərimizin və soyqırımı qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxışında qeyd edib ki, 31 Mart soyqırımı ermənilərin azərbaycanlılara qarşı törətdikləri mərhələli soyqırımı siyasətinin bir hissəsi idi. Rektor qeyd edib ki, 1998-ci ildə Ümummilli Lider Heydər Əliyev tərəfindən imzalanan "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanla faciəyə ilk dəfə dəqiq siyasi qiymət verilib. II Qarabağ müharibəsində Azərbaycan xalqının Ali Baş Komandanın ətrafında sıx birləşərək öz gücünü təsdiq etdiyini, soyqırımı qurbanlarının qisasının alındığını vurğulayıb.

Tarix üzrə fəlsəfə doktoru, dosent Abdulla Mustafayev bildirib ki, Türkmənçay müqaviləsindən sonra ermənilər Azərbaycan torpaqlarına kütləvi şəkildə köçürülüb, "böyük Ermənistan" xülyasını reallaşdırmağa çalışıblar. 1918-ci ilin 30 mart-3 aprel tarixlərdə Bakı ilə yanaşı, Qarabağ, Naxçıvan, Şamaxı, Quba, Zəngəzur və digər bölgələrdə erməni silahlı birləşmələri 50 mindən artıq azərbaycanlını qətlə yetirib, on minlərlə insanı isə doğma yurdlarından didərgin salıblar.

Azərbaycanın yeni və ən yeni tarixi ixtisası üzrə I kurs magistrant Əsmər Hüseynzadə çıxışında 31 Mart soyqırımının tarixin ən qanlı səhifələrindən biri olduğunu qeyd edib. Vurğulayıb ki, bu qanlı faciə zamanı ermənilər uşaq, qadın və yaşlı fərqi qoymadan dinc əhaliyə qarşı amansız qırğınlar törədib, insanları kəsici və deşici alətlərlə qətlə yetirib, hətta diri-diri yandırıb, memarlıq abidələrini, yaşayış məntəqələrini dağıdıblar.

Sonda 31 Mart – Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş videoçarx izlənilib.

*Düz 33 il bundan öncə, 1993-cü il martın 31-də Kəlbəcər rayonunun "Tunel" adlanan ərazisində baş verən faciə xalqımızın yaddaşından heç zaman silinməyəcək. Həmin dövr Azərbaycanın ictimai-siyasi və sosial-mədəni həyatının ən çətin illərindən biri idi. Münaqişə və işğal nəticəsində Kəlbəcər böyük insan itkiləri və dağıntılarla üzləşmişdi. "Tunel" faciəsi isə, bu baxımdan, həmin zamanın acı reallıqlarını böyük mənada əks etdirir və bu səbəbdən də rayon sakinlərinin yaddaşında dərin iz buraxıb.*

# Unudulmaz "Tunel" faciəsi, Kəlbəcərin azadlığı və bərpasına gedən yol



Faciənin baş verdiyi tunel Tərtər-Kəlbəcər yolunun cənubunda, Laçın-Kəlbəcər yolunun üstündə yerləşir. Kəlbəcərin 35 kəndini rayon mərkəzi ilə birləşdirən, eni yalnız bir avtomobilin hərəkətinə imkan verən və işıqlandırılmayan tunelin uzunluğu 2 kilometrə yaxındır. Hadisə şahidlərinin sözlərinə görə, rayon ərazisini işğal edən zaman tunelin qarşısında pusqu quran erməni silahlı qüvvələri həmin gün buradan keçən dinc azərbaycanlıları güllə-barana tutmuş, bir çoxunu öldürmüşlər. Faciə zamanı qadın, yaşlı, uşaq da daxil olmaqla, ümumilikdə, 53 nəfər qətlə yetirilib, 64 nəfər əsir götürülərək uzun müddət ağır işgəncələrə məruz qalmışdır. Hadisəni törədən silahlı dəstəyə məşhur terrorçu, sonralar Ağdam rayonu ərazisində öldürülən "Avo" ləqəbli Monte Melkonyan rəhbərlik etmişdir.

"Tunel" faciəsi, Kəlbəcərin işğalı həm infrastrukturun dağıdılmasına səbəb olub, həm də insanların həyatına, mənəvi dünyasına ciddi təsir göstərib. Rayon sakinləri doğma torpaqlarından didərgin düşmüş, kəndlər və məhəllələr dağıdılmış, sosial-iqtisadi həyat, demək olar ki, iflic vəziyyətə salınmışdı. Məhz bütün bu acı gerçəkliklərin timsalında o dövrün şəraiti müharibənin sərt reallıqlarını göstərir və Azərbaycanın hər qarış torpağı uğrunda mübarizənin vacibliyini bir daha sübut edir. "Tunel" faciəsi zamanı çoxlu sayda mülki şəxs və hərbçi həyatını itirmiş, bölgədəki yollar, körpülər və digər infrastruktur obyektləri dağıdılmışdı. Bu hadisələr bölgənin tarixində unudulmaz iz buraxmış, xalqın yaddaşında dərin kədər və iztirab yaratmışdır.

İşğaldan öncə 60 min əhalisi, 128 kəndi olan Kəlbəcər Azərbaycanın dağlar, çaylar, meşələr və mineral sularla zənginliyi ilə seçilən, kənd təsərrüfatı və turizm potensialına malik ən səfalı bölgəsi idi. Lakin 1993-cü il işğalı bu zəngin təbii və iqtisadi potensialın məhv edilməsinə yol açdı. İşğaldan əvvəl Kəlbəcər həm sakinlərinin həyat tərzi, həm də bölgənin ekoloji tarazlığı baxımından ölkənin önəmli rayonlarından biri sayılırdı. Rayonda 24 min hektar meşə ərazisi və çox sayda təbiət guşələri, nadir bitkilər var idi. Bu baxımdan, bölgənin işğalı həm də Azərbaycanın ümumi ekoloji vəziyyətinin mürəkkəbləşməsinə və təbii sərvətlərinin talan edilməsinə yol açdı.

Məlum olduğu üzrə Kəlbəcər rayonu Azərbaycanın ən qədim yaşayış məskənlərindən biri olub və burada çox sayda tarixi abidələr mövcud idi. Ərazidə alban dövrünə aid müxtəlif məbədlər, qalalar, qayaüstü təsvirlər və digər arxeoloji məkanlar tapılıb. Məşhur Xudavəng məbəd kompleksi ilə yanaşı, Qalaboynu, Comərd, Keşikçi qalaları və digərləri bu rayonun maddi-mədəni irsinə daxil idi. Qayaüstü təsvirlər isə bölgənin 30 min ildən çox tarixə malik Azərbaycan torpağı olduğunu göstərir. Bu baxımdan, rayonun işğalı ilə yalnız insanların həyatına deyil, həm də xalqımızın tarixi-mədəni irsinə ciddi zərbə vurulub. Kəlbəcər işğal edilərkən çoxsaylı tarixi və memarlıq abidələri dağıdılıb, alban dövrünə aid məbədlər, qalalar, qayaüstü təsvirlər və digər arxeoloji obyektlər ya tamamilə məhv edilib, ya da ciddi ziyana uğrayıb. Bu dağıntılar regionun mədəni irsinin qorunması baxımından böyük itkidir, çünki həmin abidələr bölgənin tarixini və mədəni zənginliyini əks etdirirdi.

## Otuzillik ədalətsiz hökmün sonu: azad, abad Kəlbəcər

2020-ci il sentyabrın 27-dən başlayaraq Azərbaycan 44 gün ərzində davam edən Vətən müharibəsi ilə tarixi zəfər, möhtəşəm qələbə qazandı. Bu qələbə nəticəsində tarixi ədalətsizlik aradan qaldırıldı və işğal altındakı torpaqlarımızın böyük hissəsi geri qaytarıldı. 2020-ci il noyabrın 10 da imzalanan üçtərəfli bəyanata əsasən Kəlbəcər rayonu həmin il noyabrın 25-də geri qaytarıldı. Prezident İlham Əliyevin 2023-cü il iyulun 31-də imzaladığı Sərəncama əsasən hər il noyabrın 25-i "Kəlbəcər Şəhəri Günü" kimi qeyd olunur.

Kəlbəcər bir güllə atılmadan Azərbaycana qaytarıldı ki, bu da hərbi-siyasi sahədəki uğurun diplomatik mərhələdə də təsdiqi oldu. Bu tarixi gün Azərbaycan xalqı üçün otuzillik ədalətsiz hökmün bitməsi və kəlbəcərlilər üçün milli qürurun bərpası kimi yaddaşlara yazıldı. Eyni zamanda həmin hərbi-siyasi qələbə Kəlbəcərin işğalına və "Tunel" faciəsinə ən layiqli, tutarlı cavab kimi tarixə düşdü. Prezident İlham Əliyev torpaqlarımızın hərbi-siyasi, diplomatik yolla azad olunmasını yüksək qiymətləndirərək deyib: ***"Ağdam, Laçın, Kəlbəcər rayonlarının bir güllə atılmadan azad edilməsi minlərlə gəncimizin həyatını xilas etdi. Biz onsuz da o bölgələri də döyüş meydanında azad edəcəkdik. Ancaq şəhidlərimizin sayı daha çox ola bilərdi".***

Kəlbəcər rayonunun azad olunması regiona yeni ümidlər və inam gətirdi, bölgədə bərpa və yenidənqurma işlərinə start verildi. Böyük Qayıdışa dair Dövlət Proqramı çərçivəsində bütün Qarabağ ərazisində olduğu kimi, Kəlbəcərin bərpası, infrastrukturun yenidən qurulması və sosial həyatın canlandırılması əsas məqsədlərdən biri oldu. Ötən beş il ərzində rayon ərazisində yeni yaşayış kompleksləri inşa edilib, yollar, körpülər, məktəblər və digər ictimai obyektlər yenidən qurulub. Elektrik və su təchizatı bərpa edilib, rabitə və kommunikasiya imkanları genişləndirilib. Eyni zamanda kənd təsərrüfatının bərpası və turizmin inkişafı istiqamətində də mühüm addımlar atılıb, bölgənin iqtisadi həyatı canlandırılıb.

Kəlbəcər şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı təsdiqlənib. Bu plan şəhərin ətraf kəndlər ilə birlikdə sistemli şəkildə inkişaf etdirilməsini, yaşayış zonalarının və ictimai məkanların planlı qurulmasını nəzərdə tutur. Kəlbəcərin bərpası təkcə infrastrukturun yaradılmasını deyil, həm də sosial həyatın canlanmasını nəzərdə tutur. Hazırda rayon ərazisində DOST məntəqəsi, poçt filialları və digər dövlət xidmət obyektləri fəaliyyət göstərir. Məcburi köçkünlərin doğma torpaqlara qayıdışı da sürətlə həyata keçirilir və bir çox ailələr artıq Kəlbəcərə qayıdaraq həyatlarını yenidən qurmağa başlayıblar. Bundan başqa, işğal dövründə zərər görmüş məbədlər, qalalar, körpülər və digər tarixi abidələr sistemli şəkildə yenidən qurulur. Mədəni irsin qorunması və bərpası layihələri həm regionun keçmişini yaşatmaq, həm də gələcək nəsillərə ötürmək məqsədi daşıyır. Həmçinin bölgədə turizm potensialı da yenidən canlanır. "İstisu" əvvəlki şöhrətini bərpa edir, təbii gözəllikləri və mineral suları ilə Kəlbəcər həm yerli sakinlər, həm də turistlər üçün cəlbedici məkana çevrilir. Müasir infrastruktur və xidmətlərin yaradılması bölgənin iqtisadi inkişafını və turizmin canlanmasını təmin edir.

## Kəlbəcər: faciədən bərpaya, unudulmaz tarixin izləri

Üzərindən yüz illər keçsə də, Kəlbəcərdə baş vermiş "Tunel" faciəsi və rayonun, ümumilikdə, işğalı heç zaman unudulmayacaq, daim Azərbaycanın milli yaddaşının bir hissəsini təşkil edəcək. Bu hadisələr həm də xalqın gücünü, sarsılmaz iradəsini, torpaq uğrunda mübarizəsini göstərən faktlardır. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi və göstərişi ilə keçmişin dərsləri gələcək nəsillərə uğurla çatdırılır, azad edilmiş torpaqlarda yeni həyat formalaşdırılır. Rayonun bərpası prosesi insanlarla paralel tarixin, mədəniyyətin, milli irsin, dəyərlərin doğma yurda qayıdışını təmin edir.

Bu gün "Tunel" faciəsi kimi kədər dolu hadisələr, acı xatirələr unudulmadan, Kəlbəcər gələcəyə doğru əmin addımlarla irəliləyir. Bərpa və quruculuq işləri həm keçmişin dərslərini xatırladır, həm də gələcək nəsillər üçün möhkəm təməl yaradır. Rayonun yenidən həyat dolu bir məkana çevrilməsi, infrastrukturun inkişafı və insanların qayıdışı göstərir ki, Kəlbəcər təkcə tarixdə deyil, bu gün və gələcək üçün də əhəmiyyətli bir bölgədir. Bu proses həm də Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizəsinin, xalqın birlik və gücünün simvoluna çevrilib. Beləliklə, keçmişin faciələrindən dərs alaraq gələcəyə inamla addımlayan Kəlbəcər rayonunun bərpası milli irsimizin qorunması və gələcək üçün strateji əhəmiyyətin nümayişidir. Milli birlikdən, həmrəylikdən güc alan Azərbaycan gün ötdükcə daha da qüdrətlənərək həm öz torpaqlarına Böyük Qayıdışı uğurla həyata keçirir, həm də bölgədə sülhün, təhlükəsizliyin təminatçısına çevrilir. Prezident İlham Əliyevin dediyi kimi: ***"Artıq Azərbaycan 1992-ci ilin Azərbaycanı deyil. Bu gün dövlətimiz güclü dövlətdir, özünü müdafiə etməyə qadir olan dövlətdir. Son 80 il ərzində bizim qədər tam və mütləq qələbə qazanmış ikinci dövlət olmamışdır dünyada. Bu gün biz sülh içində yaşayırıq və bunun təminatçısı Azərbaycan dövlətidir, bizim siyasətimizdir".***

**"Şərq qapısı"**

# Aprel döyüşləri – böyük qələbənin başlanğıcı



Bu gün tarixi qalib ölkənin vətəndaşları kimi vərəqləyirik. İllər öncə bir arzumuz var idi: bayram tonqalını Qarabağda yandırmaq. Artıq 6 ildir ki, azad Qarabağ torpaqlarında bayram tonqalını Müzəffər Ali Baş Komandan, ölkə başçısı İlham Əliyev yandırır. Torpaqlarımız zəfər dolu bu alovun hər zərrəsində can tapır, ilbəil abadlaşır, doğmalarına qucaq açır. Artıq Qarabağda yalnız bayram tonqalları deyil, evlərin işığı da yanır, gülüş səsləri, dünyaya göz açan körpə qığıltısı əbədi qayıdışımızın möhürü kimi səslənir. Bəli, biz qayıtdıq, haqq-ədalət zəfər çaldı. Bütün dünya bir daha gördü ki, Azərbaycan haqlı savaş aparıb və Qarabağ Azərbaycandır!

44 günlük müharibənin nəticəsi olaraq qazandığımız zəfər yolu isə heç də asanlıqla başa gəlməmişdi. Bu yolda neçə-neçə igidlər canını qurban vermiş, Vətən torpaqları etibarlı müdafiə olunmuşdu. Qazandığımız şanlı Aprel zəfərindən bizi 10 illik zaman ayırır. Bu gün biz tarixin Aprel səhifəsini qürurla, fəxarət hissi ilə səhifələyirik. Arzularımız çin olmuş, şəhidlərimizin qisası alınmış, insanların artıq illərdir, həsrətində olduğu torpaqlarına Böyük Qayıdışı başlanmışdır.

Aprel döyüşləri tarixə ordumuzun gücünün, xalqla ordunun birliyinin, vətənpərvərliyinin göstəricisi kimi düşüb. Aprel qələbəsi bir daha sübut etdi ki, ordumuz torpaqlarımızı işğaldan azad etməyə qadirdir. 2016-cı il aprelin 2-nə keçən gecə düşmən təmas xəttindəki bütün mövqelərimizi, eyni zamanda mülki əhalini atəşə tutmağa başladı. Dərhal əks-hücum əməliyyatına başlayan ordumuzun əsas hədəfi isə düşmənin sərhədyanı və sərhədətrafı yaşayış məntəqələrinə törətdiyi təhlükəni aradan qaldırmaq idi. 4 gün davam edən döyüşdə Azərbaycan Silahlı Qüvvələri cavab zərbələri ilə düşmən müdafiəsinin ön xəttində yerləşən çoxlu canlı qüvvə və hərbi texnikanı sıradan çıxardı. Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi və Tərtər rayonunun Madagiz kəndi istiqamətində bəzi mövqelər düşməndən azad olundu. Aprelin 4-ü Ermənistan ordusu itirilmiş mövqelərini geri qaytarmaq məqsədilə cəbhənin Ağdərə-Tərtər və Xocavənd-Füzuli istiqamətlərində mövqelərimizə yenidən hücum etdi, təmas xəttinə yaxın yaşayış məntəqələrimizi intensiv atəşə tutdu. Lakin düşmənin bu cəhdi uğursuzluqla nəticələndi və ordumuz tərəfindən yüksək peşəkarlıqla dəf edildi. Bölmələrimiz tərəfindən azad edilən ərazilərdə yeni mövqelər quruldu, mühəndis-istehkam tədbirləri həyata keçirildi.

Göstərdiyi şücaətə görə "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülən polkovnik-leytenant Şükür Həmidov həmin döyüşləri belə xatırlayırdı: "Ön xətdə döyüş növbətçiliyi aparan bölmələrimizə düşmən qəfil hücum etdi. Şəxsi heyətimiz düşmənin müqavimətini qırdı. Düşmən müqavimət göstərməyə çalışsa da, döyüşçülərimizin gücünü gördükdən sonra əlindəki silahını atıb pərakəndə şəkildə qaçmağa başladı. Ermənilər təşviş içində idi. Bölmələrimiz əks-hücum ilə düşməni geri otuzdurdu, Lələtəpə yüksəkliyi və ətraf bölgələr düşməndən tamamilə azad edildi. Çox gözəl bir tarixi an yaşandı. Ordumuzun gücü, şəxsi heyətin döyüş ruhu ortaya çıxdı. Düşmənə və havadarlarına sübut olundu ki, Azərbaycan Ordusu 90-cı illərdəki ordu deyil və ordumuzun vahid komandanlığı, orduda xidmət edə biləcək peşəkar zabitlər var. Əsgərlərimiz, döyüşçülərimiz böyük rəşadət göstərdilər. Lələtəpə yüksəkliyinə üçrəngli bayrağımızı sancdılar".

2016-cı il aprelin 2-dən 5-dək qoşunların təmas xəttində törətdikləri silahlı təxribatların qarşısının alınması və düşmənin dinc əhaliyə hücumlarının dəf edilməsi zamanı göstərdikləri igidliyə görə xüsusi fərqlənən bir qrup hərbçi Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə yüksək fəxri ada, orden və medallara layiq görüldü.

Xalqımıza böyük ruh yüksəkliyi bəxş edən Aprel zəfərində şəhadətə yüksələn oğullarımızın sırasında Naxçıvan torpağının yetirmələri də vardı. Heydər Əliyev adına Hərbi Liseyin iki məzunu – mayor Rasim Məmmədov və leytenant Qabil Orucəliyev şəhadətə yüksəldi. Şəhidlərimizin döyüş yolu gənc nəsil üçün qəhrəmanlıq örnəyi oldu.

Beləliklə, Aprel döyüşləri düşmənin ağır məğlubiyyəti ilə nəticələndi. Uzun aradan sonra xalqımıza yaşadılan qələbə sevinci ürəklərdə həm də əminlik hissi yaratdı: torpaqlarımızı düşməndən azad edəcəyik.

Aprel zəfərindən sonra mülki əhalinin Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə qayıdışı mühüm hadisə kimi tarixə düşdü. Sakinlər illər sonra böyük şövqlə öz doğma ocaqlarına qayıtdılar və bu, Böyük Qayıdışın başlanğıcı kimi yurd nisgilli ürəklərə su səpdi: biz tezliklə qayıdacağıq.

Azərbaycan Ordusu uğurlu Aprel zəfərindən sonra Günnüt zəfərinə imza atdı. 2018-ci ilin mayında muxtar respublikanın 11 min hektardan artıq ərazisi və Şərur rayonunun Günnüt kəndi düşməndən azad edilərək dövlət sərhədi boyunca əlverişli mövqelər Azərbaycan Ordusunun nəzarəti altına keçdi. Qələbə əzmi ilə irəli gedən ordumuz 44 günlük Vətən müharibəsi ilə bizə şanlı zəfərin sevinc hisslərini yaşatdı. 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun apardığı birgünlük lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkəmiz ərazi bütövlüyünü, suverenliyini tam bərpa etdi.

Üzərindən neçə onilliklər keçəcək, lakin bu gün də, sabah da Aprel döyüşlərindən hər zaman qürurla danışılacaq. 10 il əvvəl Lələtəpədə ucaldılan bayraq bu gün Qarabağın və Şərqi Zəngəzurun hər bir guşəsində dalğalanır. Aprel döyüşləri hər zaman böyük qələbənin başlanğıcı kimi xatırlanacaq.

**Ruhiyyə RƏSULOVA**

# Bol məhsulun sirri: zəhmət, texnologiya və su təminatı

## *Prezidentin Sərəncamı Şərurda təsərrüfatlara yeni nəfəs verir*

**Muxtar respublikanın ən böyük aqrar rayonu sayılan Şərurda hər il kənd təsərrüfatı sahəsində uğurlu nəticələr əldə olunur. Yazın təravətli nəfəsi ilə canlanan ərazilərdə kənd adamının zəhməti, topladığı təcrübə və dövlət dəstəyi bir araya gələrək bol məhsulun əsasını qoyur. Bu gün rayonun geniş əkin sahələrində müasir aqrar texnologiyaların tətbiqi, torpaqlardan səmərəli istifadə və fermerlərin peşəkarlığının artması kənd təsərrüfatının dinamik inkişafını aydın şəkildə nümayiş etdirir. Şərurda ənənəvi və eyni zamanda inkişaf edən əsas sahələrdən biri də kartofçuluqdur. Statistik göstəricilər bunu açıq şəkildə təsdiqləyir. Belə ki, 2025-ci ildə 589,33 hektar kartof əkin sahəsindən 17 min 825,8 ton məhsul əldə olunub. Bu isə hər hektar üzrə 302,5 sentner orta məhsuldarlıq deməkdir. 2026-cı il üçün rayon üzrə pay torpaqlarında 2152 hektar yazlıq əkin proqnozlaşdırılıb. Bunun 430 hektarında kartof əkini nəzərdə tutulur. Eyni zamanda həyətyanı sahələrdə də 200 hektaradək kartof əkilməsi gözlənilir. Beləliklə, cari ildə rayon üzrə kartof əkin sahəsinin, ümumilikdə, 630 hektarı ötəcəyi proqnozlaşdırılır.**

Kənd təsərrüfatı sahələrinin, xüsusilə də əkinçiliyin inkişafında əsas məsələlərdən biri də, sözsüz ki, etibarlı su təminatının yaradılmasıdır. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov bu il martın 19-da Şərur rayonunda torpaq mülkiyyətçiləri ilə görüşündə də bu məsələni ön plana çəkdi, Prezident İlham Əliyevin "Naxçıvan Muxtar Respublikasında su ehtiyatlarından səmərəli istifadənin





təmin edilməsinə dair 2026-2030-cu illər üçün Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında Sərəncamının əhəmiyyətini vurğuladı. Qeyd etmək yerinə düşər ki, bu sənəd yalnız strateji istiqamətləri müəyyənləşdirmir, eyni zamanda torpaq mülkiyyətçilərinə real dəstək mexanizmlərini də özündə əks etdirir. Tədbirlər Planında muxtar respublikanın bütün bölgələri kimi, Şərur rayonunun da su infrastrukturunun təkmilləşdirilməsi istiqamətində mühüm tədbirlərin icrası nəzərdə tutulur. Belə ki, rayon ərazisində Arpaçaydan qidalanan hidrotexniki qurğuların, Araz çayından qidalanan nasos stansiyalarının və təzyiqli boru xətlərinin yenidən qurulması suvarma imkanlarını genişləndirəcək. Şərurun Püsyan, Tumaslı və Xanlıqlar kəndlərinin ərazisində kollektor-drenaj şəbəkələri tikintisi isə torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılmasına xidmət edəcək.

Dövlətimizin həyata keçirdiyi mütərəqqi tədbirlər rayonun torpaq mülkiyyətçilərinin təsərrüfat fəaliyyətini daha da stimullaşdırır, onların əkin sahələrini genişləndirərək bol məhsul əldə etmələrinə əlverişli şərait yaradır. Cari təsərrüfat ilində də rayon zəhmətkeşləri qarşılarına böyük hədəflər qoyublar. Cəlilkənd kənd sakini, qabaqcıl təsərrüfatçı Yaqub Tağıyev artıq 20 ilə yaxındır, əkinçiliklə məşğuldur və əsas fəaliyyət sahəsi kartofçuluq və qismən soğançılıqdır. Onun sözlərinə görə, ötən il 55 hektara qədər sahədə kartof əkini aparıb. Hər hektar üzrə orta hesabla 50-60 ton məhsul əldə olunub. Cari ildə isə əkin sahəsini daha da genişləndirərək 75 hektara çatdırıb.

Fermer qeyd edir ki, təsərrüfatında məhsulun saxlanması üçün 3 min ton tutumu olan soyuducu anbarı, o cümlədən 300 tonluq saxlanc, 2 ədəd "New Holland" markalı traktor və 12 aqreqatı vardır. Anbarın olması məhsulu uzun müddət keyfiyyətini itirmədən saxlamağa və bazara mərhələli şəkildə çıxarmağa imkan verir. Məhsulun satışı həm daxili bazarda, həm də ölkənin müxtəlif bölgələrində həyata keçirilir. Əsasən, Bakı şəhərinə, eləcə də Bərdə və Cəlilabad rayonlarına kartof göndərilir. Paytaxtın müxtəlif bazarlarında və meyvə-tərəvəz satış məntəqələrində bu təsərrüfatın məhsullarına rast gəlmək mümkündür.



Fermer vurğulayır ki, kartofçuluqda uğurun əsas şərtlərindən biri düzgün, keyfiyyətli toxum seçimidir. Bundan əlavə, torpağın münbitliyi və növbəli əkin sistemi də mühüm rol oynayır.

Digər bir təsərrüfat adamı İlham Tağıyev isə deyir ki, ötən il 15 hektar sahədə əkin apardığı halda, bu il əkin sahəsini 25 hektara çatdırıb. Əsasən, kartof əkininə üstünlük verir. Əvvəlki illərdə müəyyən ərazidə soğan əksə də, bu il bütün sahələri kartofa ayırıb. Məhsulun satışı, əsasən, rayon bazarlarında həyata keçirilir. Bununla yanaşı, Naxçıvan bazarlarının təminatında da bu təsərrüfatın rolu var.



Fermerin sözlərinə görə, kartofçuluqda əsas amil düzgün və vaxtında suvarmadır: "Əkin torpağa qoyulduqdan sonra, təxminən, 3 ay ərzində məhsul yetişir. Bu müddətdə sahələr 3-5 gündən bir çiləmə üsulu ilə suvarılır. Məhsuldarlıq göstəricilərinə gəldikdə isə ötən il hər hektardan, təxminən, 70 ton məhsul əldə olunub. Bu il məhsuldarlığın daha yüksək olması gözlənilir. Dövlət dəstəyi də bu sahədə mühüm rol oynayır. Prezidentimizin Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasında su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2026-2030-cu illər üçün Tədbirlər Planı"nın təsdiq edilməsi və icrası yaxın gələcəkdə fermerlər üçün əlavə imkanlar yaradacaq".

Muğancıq-Müslüm kənd sakini Hüseyn Cəfərov isə bildirir ki, təsərrüfatında, əsasən, kartof əkini aparır və bu sahədə kifayət qədər təcrübə toplayıb. Fermerin sözlərinə görə, ötən il 15 hektar sahədə əkin aparıldığı halda, bu il əkin sahəsini genişləndirərək 20 hektara çatdırıb. Təsərrüfatında istifadə olunan texnikaları lizinq yolu ilə əldə edib. Suvarma sistemi, traktorlar, kartof əkən və çıxaran avadanlıqlar, dərman səpən texnikalar fermer təsərrüfatın uğur qazanmasında əsas faktorlardır.



O qeyd edir ki, Şərurda torpaqların münbitliyi məhsuldarlığa birbaşa təsir edir: "Torpaqlarımız çox əlverişlidir, məhsul yaxşı olur. Keçən il hər hektardan 55-60 ton məhsul götürmüşdük. Bu il isə daha yüksək nəticə gözləyirik. Əsas odur ki, su problemi olmasın. Bu da, əsasən, yağıntılardan asılıdır. Prezidentimizin su təminatının yaxşılaşdırılması ilə bağlı Sərəncamı da, bu baxımdan, təsərrüfatçılara böyük stimuldur və bizi daha çox əkib-becərməyə həvəsləndirir".

Fermer əlavə edir ki, sahələrində növbəli əkin üsulundan da istifadə olunur. Kartof yığıldıqdan sonra torpaq boş qalmır, mərhələli şəkildə digər tərəvəzlər əkilir. Bu sıraya lobya, bibər, kələm, pomidor, eləcə də çuğundur və kök daxildir. Sözügedən yanaşma torpaqdan daha səmərəli istifadə etməyə imkan yaradır. Məhsulun satışı da qənaətbəxşdir. Məhsullar həm yerli bazarlara çıxarılır, həm də Bakı şəhərinə və ölkəmizin digər rayonlarına göndərilir. Fermer bildirir ki, ötən il satış baxımından uğurlu olub və bu il də oxşar nəticələr gözlənilir. Dövlət dəstəyi onların məhsuldar fəaliyyətində mühüm rol oynayır. Xüsusilə subsidiyaların verilməsi və gübrələrlə təminat təsərrüfatların inkişafına ciddi təkan verir.

Ümumilikdə, aparılan müşahidələr və fermerlərlə söhbətlərimiz göstərir ki, Şərur rayonunda həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində əkin sahələrində məhsuldarlıq ildən-ilə artır, kənd təsərrüfatının ümumi göstəriciləri yüksəlir. Xüsusilə su təminatının düzgün təşkili əkinçiliyin bütün sahələri ilə yanaşı, kartofçuluqda da davamlı uğurun əsas amili kimi çıxış edir. Bu baxımdan, əminliklə demək olar ki, Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiq olunan "Naxçıvan Muxtar Respublikasında su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2026-2030-cu illər üçün Tədbirlər Planı"nın icrası yaxın gələcəkdə suvarma infrastrukturunun daha da müasirləşdirilməsinə, fermerlərin imkanlarının genişlənməsinə və aqrar sahənin dayanıqlı inkişafına mühüm töhfə verəcək.

**"Şərq qapısı"**



Yaqub Tağıyev



İlham Tağıyev



Hüseyn Cəfərov

# Naxçıvanda Bahar festivalı keçirilib

**Bayram tədbirində müxtəlif mədəni proqramlar, musiqili çıxışlar və milli rəqs nümunələri təqdim olunub. Həmçinin qurulan stendlərdə milli mətbəximizin ləziz təamları, əl işləri və suvenirlər ziyarətçilərə təqdim edilib. Festival çərçivəsində müxtəlif teatr tamaşaları, musiqi nömrələri və satış sərgiləri ilə yanaşı, həm uşaqların, həm də böyüklərin asudə vaxtının səmərəli təşkili üçün müxtəlif oyunlar və atraksionlar da quraşdırılıb.**

## Bahar festivalında sahibkarlar fəal iştirak ediblər



Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin dəstəyi, Naxçıvan Şəhər İcra Hakimiyyəti və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən Bahar festivalında müxtəlif əl işləri ilə məşğul olan şəxsi sahibkarlara da geniş yer verilib. Festival həm bayram əhvali-ruhiyyəsini yaşatmaq, həm də yerli sənətkarların fəaliyyətini dəstəkləmək baxımından xüsusi əhəmiyyət daşıyıb.

Festival ərazisində qurulan rəngarəng stendlər ziyarətçilərin böyük marağına səbəb olub. Bu stendlər arasında diqqət çəkənlərdən biri Tutu və Şəfəq Şahbazova bacılarına məxsusdur. Artıq 4 ildən çoxdur ki, peşəkar şəkildə təbii daşlarla işləyən bacılar bu sahədə özünəməxsus üslubları ilə seçilirlər. Onlar budəfəki festivala 1300-dən çox əl işini təqdim ediblər.

Festivalda iştirak edən digər sahibkarlardan biri – 35 ildən artıq



bu sahə ilə məşğul olan təcrübəli usta Fizuli Xəlilov olub. O bu dəfə festivala ağacdan və təbii duzdan hazırlanmış 100-dən çox əl işi ilə qatılıb. Onun hazırladığı məhsullar arasında şahmat, nərd kimi stolüstü oyunlar, gəmi maketləri və müxtəlif dekorativ əşyalar yer alıb. Bununla yanaşı, usta təbii duz parçaları üzərində akril boyalarla, işlədiyi rəsmlərlə də diqqəti cəlb edib. Xüsusilə Naxçıvanın simvollarından sayılan Möminə xatun türbəsi və Haçadağın təsvirləri ziyarətçilər tərəfindən maraqla qarşılanıb.

Sahibkarlar sırasında yer alan digər iştirakçılardan biri də əl işlərini hobidən peşəyə çevirən Rübabə Məmmədova olub. O, təbii daşlar və muncuqlardan istifadə edərək dekorativ ağaclar, zərif qolbaqlar, mücrülər və əl toxuması çantalar hazırlayır. Rübabə Məmmədova qeyd edir ki, bu işə ilk olaraq maraq və sevgi ilə başlayıb, zaman keçdikcə isə bu məşğuliyyət onun üçün həm yaradıcılıq, həm də gəlir mənbəyinə çevrilib.



## Bahar festivalı çərçivəsində fiziki imkanları məhdud uşaqların əl işləri də sərgilənib



"Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində təşkil olunan Bahar festivalı çərçivəsində müxtəlif istiqamətlər üzrə maraqlı stendlər təqdim olunub. Bu stendlər arasında fiziki imkanları məhdud uşaqların əl işlərinin sərgiləndiyi guşə xüsusi diqqət çəkib. Belə ki, burada fiziki imkanları məhdud olan uşaqların hazırladıqları əl işlərinin satış sərgisi həyata keçirilib.

Sərgidə rəsm terapiyası və əmək terapiyası çərçivəsində hazırlanmış 40-dan çox rəsm işi və 24 ədəd toxunma əl işi nümayiş olunub. İşlərin böyük hissəsi yağlı və akril boyalarla işlənib. Eyni zamanda gips və alçı ilə hazırlanmış müxtəlif sintez nümunələri də sərgidə yer alıb.

## Bahar festivalında milli dəyərlərimiz də təbliğ olunub

Festival çərçivəsində fəaliyyət göstərən "Sevinc – Milli-Mənəvi Dəyərlər və Müasir Çağırışlarla Sintezin İnkişafına Dəstək" İctimai Birliyi bu il də öz ənənəsinə sadiq qalaraq milli kimliyimizi əks etdirən müxtəlif təşəbbüslərlə çıxış edib.

Birliyin təşkil etdiyi guşələrdə milli geyimlərin nümayişi, kitab sərgi-satışı və könüllülərin fəal iştirakı ziyarətçilər tərəfindən böyük maraqla qarşılanıb. Təqdim olunan bu fəaliyyətlər yalnız bayram əhvali-ruhiyyəsi yaratmaqla kifayətlənməyib, eyni zamanda milli yaddaşın qorunması və gələ-



cək nəsillərə ötürülməsi baxımından əhəmiyyətli rol oynayıb.

Xüsusilə kitablara göstərilən maraq diqqət çəkib. Bu maraq bir daha göstərir ki, cəmiyyətin inkişafı yalnız iqtisadi və siyasi sahələrlə məhdudlaşmır, eyni zamanda oxuyan, düşünən və milli dəyərlərə bağlı gənclərin yetişməsi ilə sıx bağlıdır.

Festivalda iştirak edən gənclərin fəallığı və onların milli geyimlərə, eləcə də dəyərlərə olan marağı diqqətdən yayınmayıb. Tədbirdə fəallıqları ilə seçilən Caner, Əfsanə və Taleh kimi gənclərin, həmçinin milli geyimləri sevərək təbliğ edən könüllülərin iştirakı ümumi ab-havaya xüsusi rəng qatıb.

## Bahar festivalının səssiz qəhrəmanları

Festival ərazisində qurulan müxtəlif stendlər ziyarətçilərin böyük marağına səbəb olub. Tədbirin təhlükəsiz təşkili üçün isə müvafiq dövlət qurumları gücləndirilmiş iş rejimində fəaliyyət göstərib. Əraziyə nəzər saldıqda polis əməkdaşlarının ictimai asayişi qoru-





duğunu, Fövqəladə Hallar Nazirliyinin xilasedicilərinin mümkün risklərin qarşısını almaq üçün daim nəzarətdə olduğunu gördük. Eyni zamanda Təcili Tibbi Yardım Xidmətinin əməkdaşları da mümkün qida zəhərlənmələri və digər tibbi müdaxilələr üçün tam hazır vəziyyətdə idi.

İnsanların sıx toplaşdığı yarmarka ərazisində təmizliyin qorunması da xüsusi diqqət tələb edib. Bu istiqamətdə isə şəhərin sanitar təmizlik xidmətinin zəhmətkeş əməkdaşları böyük məsuliyyətlə çalışaraq səliqə-sahmanı təmin ediblər. Gün ərzində fasiləsiz aparılan təmizlik işləri sayəsində ərazi daim səliqəli saxlanılıb və bu da tədbirin ümumi görünüşünə xüsusi estetik dəyər qatıb.





## Festivalın nəğmeli qonaqları








Festival ərzində tanınmış ifaçılar – Hiss, Mərdan Kazımov, DJ Amalov və son gün "Dərviş Band" qrupunun iştirakı ilə möhtəşəm konsert proqramı keçirilib.

Qeyd edək ki, konsertlərin təşkilinə ABB və "Ləzzət" Şirkətlər Qrupu dəstək olub.




## "Dostluğun rəmzi – Novruz" tamaşası nümayiş olunub

Festival çərçivəsində musiqi nömrələri ilə yanaşı, azyaşlıların diqqətini cəlb edən teatr səhnəcikləri də nümayiş olunub. Təqdim edilən teatr nömrələri sırasında Naxçıvan Dövlət Uşaq Teatrı tərəfindən hazırlanan "Dostluğun rəmzi – Novruz" adlı tamaşa da yer alıb və azyaşlı tamaşaçılara təqdim olunub.



## Naxçıvanda Bahar festivalı başa çatıb

Naxçıvan şəhərində Novruz bayramı münasibətilə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində keçirilən Bahar festivalı zəngin proqramı və yüksək əhvali-ruhiyyə ilə başa çatıb.

Martın 20-dən 24-dək müddəti əhatə edən festival Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin dəstəyi, Naxçıvan Şəhər İcra Hakimiyyəti və Mədəniyyət Nazirliyinin birgə təşkilatçılığı ilə baş tutub.

















*Səksən bahar, səksən qış, səksən yay və səksən payız gəlib keçdi ömürdən. Bu illər köçəri quşlar kimi pərvazlanıb uçub getdilər. Belə məqamlarda insan istər-istəməz düşünür, geridə qalmış acılı-şirinli, enişli-yoxuşlu xatirələrə dönmüş ömür yoluna nəzər salır. Səksən yaşın tamam olması insan ömrünün ən xoşbəxt məqamıdır. Kamillik dövrüdür. Həmkarımız, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Əli Qəhrəmanov da səksən yaşı yola salır. Ömrünün 81-ci baharını qarşılayır.*

# Naxçıvan teatrının yorulmaz tədqiqatçısı



Neçə illərdir ki, Əli müəllimlə bir cəbhədə çalışırıq. Dərd-sərimiz də bir olub, toylu-büsatlı günlərimiz də. Əli Qəhrəmanov 1973-cü il noyabr ayının 1-dən taleyini o vaxt Naxçıvan Regional Elm Mərkəzi adlanan AMEA-nın Naxçıvan Bölməsi ilə bağlayıb. Bu gün də həmin elm ocağında çalışır, İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Musiqi və teatr şöbəsinin müdiridir. Bu mötəbər elm müəssisəsinin ağsaqqallarından biridir. Səmimi rəftarı, çalışqanlığı, təmkini ilə daşıdığı ağsaqqallıq missiyasını şərəflə doğruldur.

Bir qədər ötən illərə nəzər salıb Əli müəllimin ömür kitabının bəzi məqamlarını yada salaq. Əli Kətən oğlu Qəhrəmanov 1946-cı il aprel ayının 6-da Şahbuz rayonunun səfalı Biçənək kəndində anadan olmuşdur. Atası Kətən kişi təsərrüfat işləri ilə məşğul olmuş və övladlarını halal zəhmətlə böyütmüşdür. Kətən kişinin 6 övladı olub – 3 qız və 3 oğlan. Əli müəllim də bunların sonbeşiyidir. Ailənin "sonbeşiyi" olan Əli müəllimin özü bu gün 4 övlad, 7 nəvə sahibidir.

Əli müəllim orta təhsilini Biçənək və Şahbuz qəsəbə məktəblərində alıb və sonra ozamankı Azərbaycan Dövlət Pedaqoji İnstitutunda (indiki ADPU) Dil-ədəbiyyat fakültəsində oxuyub (1965-1970), Ukraynada hərbi xidmətdə olub. Ağbulaq, Aşağı Qışlaq və Biçənək kənd məktəblərində müəllim işləyib, Şahbuz Rayon Komsomol Komitəsinin təşkilat şöbəsinin müdiri olub və yuxarıda qeyd etdiyimiz kimi, 1973-cü il noyabr ayının 1-dən Ulu Öndərimizin tövsiyəsi ilə yeni yaradılan Naxçıvan Regional Elm Mərkəzində fəaliyyətə başlayıb.

Əli Qəhrəmanovun qısa tərcümeyi-halı bu şəkildədir. Bu lakonik iş və zəhmətlə yoğrulan ömür yolu ilk baxışdan kiçik görünə bilər. Amma illərə vursaq, rəqəm sayı çox görünər. 80 illik ömrün 50 ilindən çoxu işgüzar fəaliyyətdə, arxivlərdə, ayrı-ayrı kitabxanalarda, teatr tamaşalarında, konsert və sərgi salonlarında, müxtəlif sənətkarlarla görüşlərdə keçib.

Əli müəllimin doğma bir mövzusu var: bu, teatr və sənətdir. O yalnız bu dünyanın insanlarından, sənətin ecazkar aləmindən ürəkdolusu yazır. Naxçıvan teatrının dünənini tədqiq edir, bu gününü müstəqillik duyğularının sevinci ilə qələmə alır. Teatrşünas səriştəsi ilə bu işə girişir. Məhz bunun nəticəsi idi ki, o, 1987-ci ildə Özbəkistanın Daşkənd Sənətşünaslıq İnstitutunda "Naxçıvan teatrının tarixi və inkişaf yolu" mövzusunda namizədlik dissertasiyası müdafiə edib, sənətşünaslıq namizədi elmi dərəcəsini alıb. Bu elmi dərəcəni alan zaman Əli müəllim cavan idi. Elə o vaxtlardan işgüzarlıq, çalışmaq, yaratmaq həvəsi onun həyat kredosuna çevrilmiş, eyni şəkildə davam etməkdədir. Biz elmi əməkdaşlar bu gün 80 yaşını tamamlayan bu tanınmış elm adamının işinə, elmi fəaliyyətinə necə prinsipiallıqla yanaşdığının, necə tədqiqatlar apardığının, sanballı məqalələr yazdığının canlı şahidləriyik.

Elə ilk gündən biz Əli müəllimi belə tanımışıq: işgüzar, çalışqan, işinə qətiyyətli, mübariz keyfiyyətli. İctimai işlərdə fədakarlıq göstərən, dostlara, yaxınlara isti münasibətli. Açıq etiraf edək ki, o, xoş və səmimi rəftarı, şirin dili ilə hər kəslə doğmalıq münasibəti yaratmışdır. Təbii ki, bu xarakter onun mənəvi dəyəridir. Dahilərdən biri deyib ki, yaxşı ürək ən böyük xəzinədir. Bax, bu baxımdan, Əli Qəhrəmanov xoşbəxt insandır. Ona görə ki, qəlbi, hissiyyatı, mənəvi aləmi sağlamdır. Ona görə ki, dostlara, yaxınlara qarşı çox həssas və diqqətcildir. Bir də ona görə ki, o, sözünə də, işinə də sadiq insandır. Bu keyfiyyətlər bir toplu halında birləşəndə ortada çox maraqlı bir insan obrazı yaranır.

Əlli ildən artıqdır ki, Əli Qəhrəmanov mədəniyyət, sənət aləmini öyrənir, Naxçıvan teatrının tarixini araşdırır, qaranlıq səhifələri üzə çıxarır və müxtəlif qəzet-jurnallarda, elmi məcmuələrdə maraqlı yazılar dərc etdirir. Naxçıvan teatrının inkişaf yolunu, tarixini kompleks şəkildə tədqiq edir. Elə bunun nəticəsidir ki, onun 2004-cü ildə çap etdirdiyi "C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı" adlı irihəcmli ilk tədqiqat əsəri geniş oxucu kütləsi tərəfindən rəğbətlə qarşılandı. Bu kitab 30 illik gərgin və yaradıcı əməyin qiymətli məhsuludur. Bundan bir az sonra, 2008-ci ildə nəşr olunmuş "Naxçıvan teatrı: intibah yollarında (1883-1920)" kitabı da həmin problemin tədqiqinin davamı kimi diqqəti cəlb etmişdir. Daha sonra 2010-cu ildə dosent Ə.Qəhrəmanovun "Naxçıvan teatrının salnaməsi" adlı fundamental əsəri meydana çıxdı. Bu kitabda qədim Naxçıvan diyarının mədəniyyət tarixinin qaynaqları, mədəniyyət ocağı olan teatrımızın inkişaf yolu, onun xalqımızın inkişafındakı rolu qiymətli arxiv materialları əsasında izlənir. Əli müəllimin "Naxçıvan teatrı müstəqillik illərində" əsərində də müstəqillik dövründə Naxçıvanın teatr mühiti, mədəni həyatımızın inkişaf məsələləri işıqlandırılmışdır.

Sənətşünas alimin "Hüseyn Cavid və Naxçıvan teatrı", "Naxçıvan teatrına dair tədqiqlər", "Naxçıvan teatrı "Şərq qapısı" qəzetinin səhifələrində" adlı əsərlərində başda romantik şairimiz H.Cavid olmaqla yerli dramaturqların Naxçıvan teatrının inkişafındakı xidmətləri ilk dəfə kompleks şəkildə elmi-tədqiqata cəlb olunmuşdur. Son illərdə alim qədim ənənələrə malik olan Naxçıvan teatr sənətini daha hərtərəfli şəkildə araşdırmaqdadır. Bu baxımdan, alimin "Naxçıvan teatrında rejissor sənəti" və "Naxçıvan teatrında rəssam işi" kimi tədqiqat əsərləri Azərbaycan teatrşünaslığının öyrənilməsinə böyük töhfə hesab oluna bilər.

Onu da qeyd edək ki, Əli müəllimin tədqiqatlarında Naxçıvan torpağının yetirməsi olan xarici ölkələrdə yaşamış sənət adamlarının yaradıcılıq yolunun öyrənilməsi də xüsusi yer tutur. Məhz Əli müəllimin araşdırmaları sayəsində XX əsrin əvvəllərində Cənubi Azərbaycanda, qədim mədəniyyət beşiyi Təbrizdə yaşamış Böyükxan Naxçıvanlının buradakı teatr mühitinin inkişafındakı xidmətləri geniş ictimaiyyətə məlum olmuşdur. Onun "Təbriz teatrı və Böyükxan Naxçıvanski" əsəri də məhz kökləri qədim dövrlərə gedib çıxan Naxçıvan-Təbriz mədəni əlaqələrinin öyrənilməsi baxımından böyük elmi-mədəni əhəmiyyət kəsb edir. Yenə onun Naxçıvanda anadan olmuş, rəssamlıq sənətini məşhur Əlibəy Hüseynzadənin oğlu, görkəmli fırça ustası Səlim Turanla keçən əsrdə qardaş ölkədə inkişaf etdirən, Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün naturadan rəsmini çəkən sənət adamı, qardaş ölkənin rəssamlıq sənətinin inkişafında böyük xidmətlər göstərmiş İbrahim Səfi haqqındakı araşdırmaları mədəniyyətimizin tarixinin öyrənilməsində, Naxçıvan mədəni mühitinin öyrənilməsində önəmli qaynaqlardan biri kimi diqqətəlayiqdir.

Neçə onilliklər bundan öncə tanıdığımız teatrşünas Əli Qəhrəmanov ömür təqviminin 81-ci baharına qədəm qoyur. İlk tanışlığımızdan xeyli illər, aylar ötüb. Hər birimiz ata olmuşuq, qız köçürüb gəlin gətirmişik, baba olmuşuq. Məlumdur ki, şaxtalı, soyuqlu, çovğunlu qışdan sonra gül-çiçəkli, laləli-nərgizli bahar gəlir. Əli müəllim də baharda dünyaya gəlib. Bu baharda biz institut əməkdaşları Əli müəllimin 80 illik ömür yolunu sevincli notlarla qeyd edirik. 81-ci baharın da, dünyaya gəlişin də mübarək, Əli müəllim!

**Əbülfəz QULİYEV**
*AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü*

# Naxçıvanda canlı səhnə layihəsi çərçivəsində "Elçilik" tamaşasının premyerası keçirilib




Naxçıvan Dövlət Kukla Teatrında 27 mart – Beynəlxalq Teatr Günü münasibətilə rus dramaturqu Anton Pavloviç Çexovun əsəri əsasında hazırlanmış "Elçilik" tamaşasının premyerası keçirilib.

Tamaşanın əsas mahiyyəti insan xarakterinin zəifliklərini, eqo, qürur və xırda məişət məsələlərinin böyük mübahisələrə çevrilməsini yumoristik şəkildə göstərməkdir.

Hadisələr bir elçilik – evlilik təklifi zamanı baş verən gülməli mübahisələr üzərində qurulub. İki ailə arasında nikah məsələsi müzakirə olunarkən qəhrəmanlar tez-tez əsəbiləşir, xırda mövzular üstündə mübahisə edir və nəticədə, hadisələr gülüş doğuran vəziyyətlərə çevrilir.

Tamaşada rolları Azərbaycan Respublikasının Əməkdar artisti Bəhruz Haqverdiyev (Stepan Stepanoviç), Əfqanə Ələsgərova (Natalya Stepanovna) və İlqar Babayev (İvan Vasiliyeviç) canlandırıblar.

Səhnə əsərinin quruluşçu rejissoru Səyyad Məmmədov, quruluşçu rəssamı isə Çimnaz Gözəlova olub.

Qeyd edək ki, tamaşanın premyerası məhz 27 mart – Beynəlxalq Teatr Günü ilə əlaqədar təşkil olunub və bu əlamətdar gün münasibətilə teatrsevərlər üçün xüsusi bayram əhvalı yaradılıb.




# TRT Avaz-ın Azərbaycanla bağlı hazırladığı süjetdə Naxçıvan da yer alıb




Türkiyənin nüfuzlu televiziya kanallarından biri olan TRT Avaz-da Azərbaycanda qeyd olunan Novruz bayramı ilə bağlı xüsusi süjet yayımlanıb. Süjetdə Naxçıvan da diqqət mərkəzində yer alıb.

Jurnalist Günay Ardanın təqdimatında hazırlanan reportajda Azərbaycanın zəngin milli-mədəni dəyərləri və əsrlərboyu qorunub saxlanılan adət-ənənələri geniş şəkildə təqdim olunub. Süjetdə qeyd olunur ki, sovet dövründə bu bayram qadağan edilsə də, Azərbaycan xalqı öz milli kimliyini və tarixi ənənələrini qoruyub saxlayaraq bütün çətinliklərə rəğmən Novruz ənənələrini yaşadıb.




Materialda ölkənin müxtəlif bölgələrində keçirilən bayram tədbirləri işıqlandırılıb, o cümlədən Naxçıvan Muxtar Respublikasında Novruzun qeyd olunması xüsusi vurğulanıb.

Qeyd edək ki, TRT Avaz tərəfindən hazırlanan bu cür materiallar Azərbaycanın mədəni irsinin beynəlxalq səviyyədə tanıdılmasına və təbliğinə mühüm töhfə verir.

# Fransız səyyah: Qarabağa və Naxçıvana səfər etmək məni çox sevindirir




Mən Bakıya ilk dəfə 1970-ci ildə gəlmişdim. Bu, çox uzun zaman əvvəl olub. İndi şəhərə yenidən baxanda demək olar ki, onu tanımıram. O illərdən yadda qalan ən çox hökk olunan isə neft qoxusudur.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında "NomadMania" klubunun illik toplantısında iştirak edən fransız səyyah Andre Brugiroux bildirib.

Uzun illər əvvəl Qarabağa və Naxçıvana səfər etmək istəsə də, buna imkan tapmadığını diqqətə çatdıran səyyah deyib: "Həmin vaxt Ermənistandan Qarabağa və Naxçıvana getmək istəyirdim, lakin icazə verilmədi. İndi isə hər iki bölgəyə səfər etmək imkanı yaranıb və bu məni çox sevindirir".

# Naxçıvanda yazın nəfəsi duyulur



Fotolar: Əli XUDİYEV

## Şəhid övladları üçün Heydər Əliyev Beynəlxalq Hava Limanına ekskursiya təşkil edilib



"Naxçıvan Şəhid Ailələri" İctimai Birliyi və "Azərbaycan Hava Yolları" QSC (AZAL) ilə birgə həyata keçirilən təşəbbüs çərçivəsində şəhid ailələrinin övladları üçün Heydər Əliyev Beynəlxalq Hava Limanı ərazisində maarifləndirici ekskursiya təşkil olunub.

Ekskursiya zamanı uşaqlara aviasiya sahəsi barədə ətraflı məlumat verilib. Onlar "səmanın kraliçası" kimi tanınan əfsanəvi Boeing 747 təyyarəsinin göyərtəsini və pilot kabinini ziyarət edərək uçuş prosesinin əsas mərhələləri ilə yaxından tanış olublar.

Daha sonra iştirakçılar aeroport ərazisində fəaliyyət göstərən yanğından mühafizə xidmətinin işi ilə tanış olub, yanğınsöndürmə texnikasının fəaliyyəti barədə əyani məlumat əldə ediblər. Eyni zamanda xidməti itlərin hazırlığı və əməliyyat zamanı yerinə yetirdikləri vəzifələr nümayiş etdirilib.

Maraqlı və yaddaqalan ekskursiyanın sonunda uşaqlara hədiyyələr təqdim olunub, xatirə şəkilləri çəkilib.

Qeyd edək ki, bu cür maarifləndirici tədbirlərin əsas məqsədi şəhid övladlarının dünyagörüşünü genişləndirmək, onların gələcək peşə seçimlərinə müsbət təsir göstərmək və aviasiya sahəsinə marağını artırmaqdır.

## Heydər Əliyev su anbarının ətrafı tullantılardan təmizlənib



Martın 18-də ekokönüllülərin iştirakı ilə Heydər Əliyev su anbarının ətrafında təmizlik aksiyası keçirilib.

"Şəhərsalma və Memarlıq İli" çərçivəsində təşkil olunan aksiyada Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları və ekokönüllülər iştirak ediblər.

Aksiya zamanı ərazi, ümumilikdə, 100 kiloqramdan artıq tullantıdan təmizlənib.

Aksiyanın keçirilməsində məqsəd ətraf mühitin mühafizəsi, ekoloji şüurun artırılması, təbiətə qarşı məsuliyyətli yanaşmanın təşviqi və tullantıların düzgün idarə olunmasına diqqətin cəlb edilməsidir.

## Qız voleybolçularımızdan böyük uğur




14 yaşadək qız voleybolçulardan ibarət "Mömünə xatun" komandası Azərbaycan çempionatının bürünc medallarını qazanıb.

Üçüncü yer uğrunda görüşdə komandamız "Şərqi Zəngəzur RVK" komandası ilə üz-üzə gəlib.

Dərnəgüldəki Voleybol Mərkəzində keçirilən görüşdə "Mömünə xatun" komandası hesabda geri düşməsinə baxmayaraq, əzmkarlıq nümayiş etdirərək rəqibini 2:1 (19:25, 26:24, 15:9) hesabı ilə məğlub edib və ölkə çempionatının bürünc medalını qazanıb.

Voleybolçularımızı təbrik edirik!

### Bildiriş

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 6 mart 2026-cı il tarixli,
43-VII FR nömrəli Fərmanına əsasən Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti ləğv edilmişdir.

***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 6 mart 2026-cı il tarixli,
43-VII FR nömrəli Fərmanına əsasən Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliyində "Sertifikatlaşdırma və Metrologiya Mərkəzi" publik hüquqi şəxs ləğv edilmişdir.

### İtmişdir

Şərur şəhər sakini Rəhimova Xuraman Hüseyn qızının adına olan 102013026193 reyestr nömrəli plan və ölçü itdiyindən etibarsız sayılır.

***

İbrahimov Elvin Azər oğlunun adına olan kapitanın MN-0054534 seriya nömrəli hərbi vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, N.Naxçıvani küçəsi, döngə 2, ev 10-da yaşayan Məmmədov Abazər Həsən oğluna məxsus 257 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Muğancıq-Müslüm kənd sakini Nəcəfov Natiq Yaqub oğlunun adına olan 102013007361 reyestr nömrəli, A-021986 nömrəli torpaq sahəsinin plan-ölçü və çıxarışı itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm qəsəbəsində Məmmədov Qurban Salman oğluna məxsus olan JN-1477$^A$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Vərməziyar kəndində yaşamış Əliyeva Ofelya Əli qızına məxsus JN-338$^A$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Mahmudkənd sakini Xudiyev Qəhrəman Yaqub oğluna məxsus JN-747$^A$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Siyaqut kənd sakini Yasinov Rasim İsmayıl oğluna məxsus JN-304 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Xətai məhəlləsi, döngə 8, ev 16-da yaşayan Qafarova Humay Həsənxan qızının adına olan 18778 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Çəmənli kənd sakini Nəbiyev Qəşəm Hümbət oğlunun adına olan JN-125$^A$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Zeyvə kənd sakini Rzayev Seymur Polad oğlunun adına verilmiş JN-609 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI
Baş redaktor: SARA ƏZİMOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441
Çapa imzalanmışdır 00:00
Tiraj: 550. Sifariş № 67
Nömrəyə məsul: Nail Əsgərov, Zəhra Vəliyeva, Elnurə Cəfərova
Dizayner: Həbibə Allahverdiyeva
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.